RİYAZİYYAT

DƏRSLİK

2

2-ci hissə

AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT HİMNİ

Musiqisi ***Üzeyir Hacıbəylinin,***
sözləri ***Əhməd Cavadındır.***

Azərbaycan! Azərbaycan!
Ey qəhrəman övladın şanlı Vətəni!
Səndən ötrü can verməyə cümlə hazırız!
Səndən ötrü qan tökməyə cümlə qadiriz!
Üçrəngli bayrağınla məsud yaşa!
Minlərlə can qurban oldu!
Sinən hərbə meydan oldu!
Hüququndan keçən əsgər
Hərə bir qəhrəman oldu!

Sən olasan gülüstan,
Sənə hər an can qurban!
Sənə min bir məhəbbət
Sinəmdə tutmuş məkan!

Namusunu hifz etməyə,
Bayrağını yüksəltməyə
Cümlə gənclər müştaqdır!
Şanlı Vətən! Şanlı Vətən!
Azərbaycan! Azərbaycan!

HEYDƏR ƏLİYEV

AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ

ZAUR İSAYEV, MƏNSUR MƏHƏRRƏMOV, GÜNAY HÜSEYNZADƏ,
SOLMAZ ABDULLAYEVA, İLAHƏ RÜSTƏMOVA

RİYAZİYYAT

Ümumi təhsil müəssisələrinin 2-ci sinifləri üçün
Riyaziyyat fənni üzrə dərslik
(2-ci hissə)

2

©Azərbaycan Respublikası Təhsil Nazirliyi

Creative Commons Attribution-NonCommercial-ShareAlike 4.0 International (CC BY-NC-SA 4.0)

Bu nəşr Creative Commons Attribution-NonCommercial-ShareAlike 4.0 International lisenziyası (CC BY-NC-SA 4.0) ilə **www.trims.edu.az** saytında əlçatandır. Bu nəşrin məzmunundan istifadə edərkən sözügedən lisenziyanın şərtlərini qəbul etmiş olursunuz:

İstinad zamanı nəşrin müəllif(lər)inin adı göstərilməlidir.

Nəşrdən kommersiya məqsədilə istifadə qadağandır.

Törəmə nəşrlər orijinal nəşrin lisenziya şərtlərilə yayılmalıdır.

Bu nəşrlə bağlı irad və təkliflərinizi
artitrm2017@gmail.com və **derslik@edu.gov.az**
elektron ünvanlarına göndərməyiniz xahiş olunur.
Əməkdaşlığınız üçün əvvəlcədən təşəkkür edirik!

Mündəricat

7 Çıxma (onluğun ayrılması)

21. İkirəqəmli ədədlə birrəqəmli ədədin fərqi. 6
22. İkirəqəmli ədədlərin fərqi 9
Məsələ və misallar 11
23. Toplama və çıxmanın əlaqəsi. 12
24. Mötərizəli ifadələr 14
Məsələlər. 17
25. İkiaddımlı məsələlər 18
Ümumiləşdirici tapşırıqlar 20

8 Vurma və bölmə

26. Vurma 22
27. 2-yə və 3-ə vurma 24
28. 4-ə və 5-ə vurma 26
29. Vurma cədvəli 28
Məsələ və misallar. 31
30. Bölmə 32
31. Vurma və bölmənin əlaqəsi . 34
Ümumiləşdirici tapşırıqlar . . 37

9 Ədədlər (500-ə qədər). Pullar

32. 500-ə qədər sayma . . . 40
33. Yüzlük, onluq və təklik . . 42
34. Pullar 44
35. Alış-veriş 47
Ümumiləşdirici tapşırıqlar . . 50

10 Ölçmə

36. Uzunluq 52
37. Kütlə 55
38. Tutum 57
Məsələlər 59
39. Təkrarlanan hadisələr . . . 60
40. Saat 62
Ümumiləşdirici tapşırıqlar . . 65

11 Məlumatların təsviri

41. Cədvəl, piktoqram, diaqram 66
42. Məlumatları necə toplamalı? Praktik dərs 69

2-ci sinif üzrə ümumiləşdirici tapşırıqlar . 70
Sözlük 74

ÇIXMA
(onluğun ayrılması)

Hazırıqmı?

- Vitrində şokoladlı və çiyələkli kekslərin hər birindən neçə dənədir?
- Cəmi neçə keks var?
- Şokoladlı kekslər çiyələkli kekslərdən nə qədər çoxdur? Bunu necə tapmaq olar?

ÇIXMA (onluğun ayrılması)

21 İkirəqəmli ədədlə birrəqəmli ədədin fərqi

Araşdırma-müzakirə **OYUN**

Oyunçu sayı: 2 nəfər.
Ləvazimat: 1 zər, hər oyunçuya şəkildə təsvir olunan cədvəl, on-on bağlanmış 3 dəstə və 2 dənə tək çöp

Oyunun qaydası:

1. Çöplər şəkildəki kimi cədvəlin xanalarına qoyulur.
2. Hər oyunçu növbə ilə 3 dəfə zər atır.
3. Düşən xal təkliklərdən çox deyilsə, təkliklər sütunundan uyğun sayda çöp kənara qoyulur. Düşən xal təkliklərdən çoxdursa, onluqlardan 1 çöp dəstəsi açılır və təkliklərə əlavə edilir. Sonra təkliklər sütunundan uyğun sayda çöp kənara qoyulur. Axıra daha az çöpü qalan oyunçu qalib gəlir.



Açar sözlər

- ikirəqəmli ədəd
- təkliklərin müqayisəsi
- onluq ayırma
- azalan
- çıxılan
- fərq

Öyrənmə

İkirəqəmli ədədlə birrəqəmli ədədin fərqini taparkən azalanın təklikləri çıxılandan kiçik ola bilər. Bu zaman azalandan 1 onluq ayrılır və 10 vahid kimi təkliklərə əlavə olunur. Məsələn: 34 – 5 = ?

Addım 1. Təkliklər müqayisə olunur: 4 təklikdən 5 təkliyi çıxmaq olmur. Bunun üçün azalandan 1 onluq ayırıb onun təkliklərinə əlavə edilir.



	Onl.	Təkl.
	3	4
–		5

34 = 3 onluq + 4 təklik

	Onl.	Təkl.
	10	
	3	4
–		5

1 onluq ayrılır və təkliklərə əlavə edilir.

	Onl.	Təkl.
	2	14
	~~3~~	~~4~~
–		5

34 = 2 onluq + 14 təklik

Addım 2. Təkliklər çıxılır.



Onl.	Tək.
2	14
~~3~~	~~4~~
–	5
	9

14 təklik – 5 təklik = 9 təklik

34 – 5 = 29

Addım 3. Onluqlar çıxılır.



Onl.	Tək.
2	14
~~3~~	~~4~~
–	5
2	9

2 onluq – 0 onluq = 2 onluq

Fikirləş!

Geri saymaqla 34 – 5 fərqini necə tapmaq olar? Ədəd oxunda göstərin.



Bələdçi

Təsvirlərdən istifadə etməklə və alt-alta yazmaqla fərqi tapın.

• NÜMUNƏ •

32 – 8 = ?



Onl.	Tək.
3	2
–	8

10

Onl.	Tək.
2	12
~~3~~	~~2~~
–	8
2	4

a) 45 – 7 = ?



b) 54 – 6 = ?



Müstəqil iş

1. Misalları həll edin.

32 – 3 =	41 – 6 =	60 – 7 =	56 – 9 =	45 – 8 =	73 – 7 =	83 – 5 =	22 – 9 =	91 – 5 =
48 – 9 =	94 – 8 =	82 – 7 =	57 – 8 =	72 – 6 =	61 – 8 =	33 – 9 =	40 – 8 =	54 – 7 =

2. Ədəd oxundan istifadə etməklə fərqi tapın.

43 – 6	52 – 5	61 – 7	74 – 6	35 – 7	82 – 6	97 – 8



• Çıxılanı uyğun hissələrə ayırmaqla fərqi daha asan tapmaq olar.

34 – (5) = ?
(4) (1)

34 – 4 = 30
30 – 1 = 29

34 – 5 = 29

67 – (9) = ?
(7) (2)

67 – 7 = 60
60 – 2 = 58

67 – 9 = 58

Bu üsuldan istifadə etməklə fərqi şifahi tapmaq olar.

3. Çıxılanı hissələrə ayırmaqla fərqi tapın. Bir neçə misalı şifahi həll edin.

42 – 4	31 – 9	43 – 8	66 – 8	81 – 2	92 – 9	71 – 6
25 – 7	44 – 6	88 – 9	53 – 5	72 – 5	33 – 6	60 – 4

Məsələ həlli

4. Bilik yarışında 42 şagird iştirak edirdi. Onlardan 6-sı birinci mərhələdə yarışı tərk etdi, qalanları ikinci mərhələyə keçdi. İkinci mərhələyə neçə şagird keçdi?

5. Satıcı yaşıl hədiyyə qutusunu bəzəmək üçün 64 sm, sarı qutunu bəzəmək üçün isə bundan 8 sm qısa lent kəsdi. Satıcı sarı qutunu bəzəmək üçün neçə santimetr lent kəsdi?

6. Misalları həll edin. Çıxma əməlinin cavabı hərflə işarələnib. Aşağıdakı cədvəldə hər ədədin altında uyğun hərfi müəyyən edin və sözü oxuyun.

54 – 8	A	95 – 6	Y	31 – 3	İ	42 – 5	T	85 – 6	R	67 – 9	Z

79	28	89	46	58	28	89	89	46	37

7. Anarın 18, Lalənin isə bundan 5 ədəd çox stikeri var.
- Lalənin neçə stikeri var?
- Samirin stikerləri Lalənin stikerlərindən 9 ədəd azdır. Samirin neçə stikeri var?

8. "Ədəd tərəzisinin" gözləri bərabərləşib. "?" işarəsinin yerinə hansı ədəd olmalıdır?

a) (7) (?) (42)



b) (16) (15) (8) (?)



c) (7) (25) (3) (?) (9)



22 İkirəqəmli ədədlərin fərqi

Araşdırma-müzakirə

Turistlər hotelin 18-ci mərtəbəsində liftə minib 32 düyməsini basdılar.

- Onlar neçə mərtəbə qalxacaqlar?

Açar sözlər

- müqayisə
- təklik
- onluq ayırma
- geri sayma

Öyrənmə

İkirəqəmli ədədlərin fərqini taparkən azalanın təklikləri çıxılanın təkliklərindən kiçik ola bilər. Məsələn: 43 – 25 = ?

Addım 1. Təkliklər müqayisə olunur: 3 təklikdən 5 təkliyi çıxmaq olmur. Bunun üçün azalandan 1 onluq ayırıb onun təkliklərinə əlavə edilir.



Onl. Təkl.
10
4 3
– 2 5

43 = 4 onluq + 3 təklik



Onl. Təkl.
3 13
– ~~4~~ ~~3~~
2 5

43 = 3 onluq + 13 təklik

Addım 2. Təkliklər çıxılır.



Onl. Təkl.
3 13
~~4~~ ~~3~~
– 2 5
8

13 təklik – 5 təklik = 8 təklik

Addım 3. Onluqlar çıxılır.



Onl. Təkl.
3 13
~~4~~ ~~3~~
– 2 5
1 8

3 onluq – 2 onluq = 1 onluq

43 – 25 = 18

Bələdçi

Təsvirlərdən istifadə etməklə və alt-alta yazmaqla fərqi tapın.

• NÜMUNƏ •

45 – 18 = ?



Onl. Təkl.
10
4 5
– 1 8

Onl. Təkl.
3 15
~~4~~ ~~5~~
– 1 8
2 7

a) 32 – 17 = ?



b) 54 – 36 = ?



Müstəqil iş

1. Misalları həll edin.

51 − 24	70 − 28	64 − 56	92 − 38	45 − 17	83 − 36	58 − 29	32 − 17	91 − 45

2. Ədədləri alt-alta yazmaqla fərqi tapın.

33 – 19	41 – 13	70 – 36	66 – 48	90 – 32	82 – 49	95 – 38

- Geri saymaqla 43 – 25 fərqini belə tapmaq olar:
  Addım 1. Azalandan başlamaqla çıxılandakı onluqların sayı qədər on-on geri sayılır: 43, 33, 23. ➡ 43 – 20 = 23
  Addım 2. Alınan ədəddən başlayaraq çıxılandakı təkliklərin sayı qədər geri sayılır:
  23, 22, 21, 20, 19, 18. ➡ 23 – 5 = 18



11	12	13	14	15	16	17	18	~~19~~	~~20~~
~~21~~	~~22~~	~~23~~	24	25	26	27	28	29	30
31	32	33	34	35	36	37	38	39	40
41	42	43	44	45	46	47	48	49	50
51	52	53	54	55	56	57	58	59	60



43 – 25 = 18

Bu üsuldan istifadə etməklə fərqi şifahi tapmaq olar.

3. Fərqi şifahi tapın. Bir neçə cavabın doğruluğunu alt-alta çıxmaqla yoxlayın.

34 – 27	51 – 25	82 – 43	53 – 16	65 – 18	96 – 38	42 – 29

4. Hesablayın və müqayisə edin.

33 – 17 ∗ 18	29 ∗ 44 – 18	52 – 25 ∗ 42 – 15	60 – 18 ∗ 80 – 22

Məsələ həlli

5. Lalənin anası şənlik üçün 33 dənə kiçik keks bişirdi. Onlardan 16 dənəsi kişmişli, qalanı isə şokoladlı idi. Lalənin anası neçə şokoladlı keks bişirdi?

6. Tətilin ilk günü Kukla Teatrına 64 şagird getdi. Bu, ikinci gün teatra gedən şagirdlərin sayından 18 nəfər çox idi. İkinci gün teatra neçə şagird getmişdi?



MƏSƏLƏ VƏ MİSALLAR

1. Misalları həll edin.

– 43 6	– 71 4	– 50 3	– 22 5	– 81 35	– 92 46	– 37 18	– 83 59	– 30 15

2. Fərqi tapın.

70 – 7	28 – 9	30 – 6	42 – 4	51 – 46	92 – 29	73 – 58
73 – 9	61 – 7	64 – 8	37 – 9	55 – 27	60 – 38	83 – 39

3. Hesablayın və müqayisə edin.

82 – 17 ∗ 56 28 + 14 ∗ 64 – 16 71 – 38 ∗ 83 – 50 31 + 15 + 29 ∗ 92 – 25

4. Uyğun misallar yazın.

a) 50-dən 26 vahid kiçik ədədi tapın.
b) 70-dən sonrakı cüt ədəddən 17 ədədini çıxın.
c) 83-dən əvvəlki tək ədəddən 38 ədədini çıxın.
d) 60 ədədindən ən kiçik ikirəqəmli tək ədədi çıxın.

5. Aynurun anası şəkildəki hədiyyəni almaq üçün satıcıya iki dənə 20 manatlıq verdi. Satıcı Aynurun anasına nə qədər pul qaytardı?

6. Mağazaya 50 ədəd damalı dəftər və bundan 18 dənə az birmil dəftər gətirdilər. Mağazaya cəmi neçə dəftər gətirdilər?

7. Şəklə əsasən məsələ qurun və həll edin.



23 Toplama və çıxmanın əlaqəsi

Araşdırma-müzakirə

Bilik yarışında 44 şagird iştirak etdi. Bunlardan 25 nəfəri qız idi.

Açar sözlər
- ədəd üçlüyü
- tam, hissə

- Yarışda neçə oğlan iştirak etdi?
- Cavabın doğruluğunu necə yoxlamaq olar?

Öyrənmə

Tam və onun hissələri ilə bağlı toplama və çıxmanın əlaqəsinə aid 4 misal yazmaq olar.

Tam

42	
28	14

Hissə Hissə

42 – 14 = 28	28 + 14 = 42	42 – 28 = 14	14 + 28 = 42
42 − 14 = 28	28 + 14 = 42	42 − 28 = 14	14 + 28 = 42

Bələdçi

• NÜMUNƏ •

82	
28	54

82 – 28 = 54
54 + 28 = 82
82 – 54 = 28
28 + 54 = 82

Toplama və çıxmanın əlaqəsinə aid misallar yazın.

a)

40	
17	23

b)

91	
54	37

Müstəqil iş

1. Ədəd üçlüyünə əsasən toplama və çıxmanın əlaqəsinə aid misallar yazın.

62	
9	53

53	
15	38

81	
50	31

44	
19	25

96	
57	39

2. Misalları həll edin. Cavabın doğruluğunu yoxlayın.

43 – 17	70 – 32	58 + 15	47 – 20	75 + 19
36 + 27	54 – 36	28 – 13	40 + 55	93 – 46

3. Məchulu tapın. Cavabın doğruluğunu yoxlayın.

52		?		70		78	
?	24	60	16	?	25	41	?
□ + 24 = 52		□ – 60 = 16		70 – □ = 25		41 + □ = 78	

4. Boş xanalardakı rəqəmləri müəyyən edin.

4 3	□ 9	□ 0	6 □	□ □	□ □	3 □
+ 2 □	– 2 7	+ 2 □	– □ 2	+ 1 3	– 2 5	+ 3 3
6 5	3 2	4 3	1 4	8 7	6 2	□ 3

5. Tərəzinin gözlərini bərabərləşdirmək üçün neçə kub əlavə etmək, yaxud götürmək lazımdır?



27 + □ = 32	53 – □ = 35	40 – □ = 21
27 = 32 – □	53 = 35 + □	40 = 21 + □

Məsələ həlli

6. Səbətdə bir neçə yumurta var idi. Əsmər nənə 26 yumurta da əlavə etdikdən sonra 34 yumurta oldu. Səbətdə əvvəlcə neçə yumurta var idi?

7. Anar birinci gün nağıl kitabının 16 səhifəsini oxudu. Kitabı bitirmək üçün 24 səhifə qaldı. O, birinci gün neçə səhifə oxumalı idi ki, kitabı bitirmək üçün 16 səhifə qalsın?

24 Mötərizəli ifadələr

Araşdırma-müzakirə

Anar parkdan evə qədər yolun 90 addım olduğunu müəyyən etdi.

- Marketdən evə neçə addım olduğunu necə tapmaq olar?
- Məsələni misal yazmaqla necə həll etmək olar?

Açar sözlər

- **mötərizə ( )**
- **ədədi ifadə**



Öyrənmə

27 + 32 | 57 + 32 – 5 | 18 – (10 – 2) | 92 – 17 – 33 + 21 kimi ifadələr **ədədi ifadə**lərdir. İfadələrdə əməlləri yerinə yetirməklə ifadənin qiyməti tapılır.

Hesablamalarda **mötərizə** daxilindəki əməllər birinci yerinə yetirilir.

$$15 - \overset{2}{(9 + 5)} = 15 - \overset{1}{14} = 1$$

Toplama və çıxmadan ibarət ifadələrdə mötərizə yoxdursa, əməllər soldan sağa ardıcıl yerinə yetirilir.

$$\overset{1}{15 - 9} + 5 = \overset{2}{6 + 5} = 11$$

Bələdçi

Əməllərin hansı ardıcıllıqla yerinə yetirildiyini müəyyən edin. İfadənin qiymətini hesablayın.

• NÜMUNƏ •

$$42 - \overset{2}{(12 + 5)} = 42 - \overset{1}{17} = 25$$

$$\overset{1}{32 - 10} + 20 = \overset{2}{22 + 20} = 42$$

18 – (6 + 4)	14 – 8 + 7
17 + 13 – 10	16 – (9 – 3)
15 – (20 – 7)	65 – 35 – 20
27 – 17 + 32	52 – (40 – 30)

Müstəqil iş

1. Şəkillərə əsasən boş xanalardakı ədədləri müəyyən edin. “?” işarəsinin yerinə uyğun ədədləri tapın.

a)



12 kitab | 6 kitab | ? kitab

36 kitab

36 – (☐ + ☐) = ☐

b)

? karandaş | 10 karandaş | 8 karandaş

28 karandaş

☐ – (10 + ☐) = ☐

2. İfadələrin qiymətini hesablayın.

40 – (10 – 5)	20 + (26 – 6)	38 – (20 – 10)	28 – (18 + 2)
37 – (12 – 2)	56 – (20 + 11)	75 – (25 + 30)	40 – (6 + 4)

3. Misalları həll edin.

3 + 11 – 10	18 + 8 – 2	30 – 15 – 3	50 – 20 – 30
32 – 2 – 18	15 + 5 + 7	20 + 17 – 28	28 + 2 – 10

4. Hansı çərçivələrdəki ifadələrin qiymətləri bərabərdir?

a) 9 – 5 – 3
9 – (5 – 3)

b) 6 + 4 – 2
6 + (4 – 2)

c) (12 – 6) + 1
12 – 6 + 1

d) 10 – 5 + 1
10 – (5 + 1)

5. Hesablayın.

48 – 8 – 10 – 20	30 – 10 + 20 + 15	42 – 30 + 32 – 22
35 + 25 – 10 + 30	5 + 15 + 25 – 25	24 – 14 + 13 + 17

- Mötərizəli ifadələr belə oxunur:

(20 – 5) + 10	15 – (9 + 4)
20 və 5 ədədlərinin fərqi ilə 10 ədədinin cəmi	15 ədədi ilə 9 və 4 ədədləri cəminin fərqi

6. Mötərizəli ifadələri sözlə söyləyin.

10 + (25 – 20) 38 – (16 + 2) (54 – 30) + 14 (29 + 20) – 34

7. Şərtə əsasən ifadələr yazın və qiymətini hesablayın.

a) 50 və 30 ədədləri cəmi ilə 15 ədədinin fərqini tapın.
b) 40 ədədindən 10 və 26 ədədlərinin cəmini çıxın.
c) 68 ədədindən 35 və 20 ədədlərinin fərqini çıxın.

8. Hesablayın və müqayisə edin.

43 – (21 – 8) ∗ 60 57 – (9 + 38) ∗ 19 – 9 20 + 42 ∗ 19 + (53 – 30)

Məsələ həlli

9. Sinif otağında 28 şagird var idi. Tənəffüsdə 8 uşaq dəhlizə çıxdı. Dəhlizə çıxan uşaqlardan 5-i yenidən sinfə qayıtdı. Otaqda neçə şagird oldu? Məsələnin həllinə uyğun ifadəni seçin və hesablayın.

28 – (5 + 8) 28 + (8 – 5) (28 – 8) + 5 (28 – 8) – 5

10. Bankada 50 kürəcik var. Onlardan 15 dənəsi sarı, 10 dənəsi yaşıl, qalanı isə qırmızıdır. Bankada neçə qırmızı kürəcik var?
İfadələrdən məsələnin həllinə uyğun olanları seçin və qiymətini tapın.

50 – 15 – 10 50 – 15 + 10 50 – (15 + 10)

11. Şəklə əsasən məsələ qurun və müxtəlif üsullarla həll edin.



MƏSƏLƏLƏRİ HƏLL EDİN

- MƏSƏLƏNİ ANLA
- PLAN QUR
- HƏLL ET
- YOXLA

1. Yeşikdə 25 kq meyvə var. Bunun 9 kiloqramı alma, qalanı isə armuddur. Yeşikdə neçə kiloqram armud var?

2. Köşkdə şənbə günü 56, bazar günü isə 38 qəzet satıldı. Şənbə günü satılan qəzetlərin sayı bazar günü satılanlardan neçə ədəd çoxdur?

3. Bankada 45 kürəcik var. Onlardan 8-i mavi, qalanları isə qırmızı rəngdədir.

- Bankada neçə qırmızı kürəcik var?
- Mavi kürəciklər qırmızı kürəciklərdən neçə dənə azdır?

4. Anar 32 bitkidən herbari hazırladı. Bunlardan 24-ü çiçək, qalanları isə dərman bitkisi idi. Herbaridə neçə dərman bitkisi var idi?

5. Bostançı birinci gün 44, ikinci gün isə bundan 16 ədəd az qarpız yığdı.

- Bostançı ikinci gün nə qədər qarpız yığdı?
- O, iki gündə cəmi neçə qarpız yığdı?

6. Gimnastika üzrə beynəlxalq turnirdə 24 gimnast medalla təltif olundu. Onlardan 8-i qızıl, 8-i gümüş, qalanı isə bürünc medal qazandı. Neçə gimnast bürünc medal qazandı?
Məsələnin həllinə uyğun ifadələri seçin.

24 – 8 + 8	24 + (8 – 8)	24 – 8 – 8	24 – (8 + 8)

25 İKİADDIMLI MƏSƏLƏLƏR

NÜMUNƏ Mağazada 52 qutu meyvə şirəsi var idi. Günortaya qədər 19, günortadan sonra isə 26 qutu meyvə şirəsi satıldı. Axşam mağazada neçə qutu şirə qaldı?

1-ci addım • • • **MƏSƏLƏNİ Anla** • • • • • • məsələni başa düşmək

Nəyi tapmalıyam: Mağazada qalan şirə qutularının sayını.
Nə məlumdur: Mağazada 52 qutu meyvə şirəsi var idi. Günortaya qədər 19, günortadan sonra 26 qutu meyvə şirəsi satıldı.

2-ci addım • • • **PLAN Qur** • • • məsələnin həll yolunu fikirləşmək

Necə həll edə bilərəm: Əvvəl günorta mağazada qalan şirə qutularının sayını tapıram. Bu ədəddən günortadan sonra satılan qutuların sayını çıxıram.

3-cü addım • • • **HƏLL Et** • • • • • • məsələni həll etmək

Addım 1. Günorta mağazada neçə qutu meyvə şirəsi qaldı?



$$\begin{array}{r} 52 \\ -\ 19 \\ \hline 33 \end{array}$$

Addım 2. Axşama neçə qutu meyvə şirəsi qaldı?



$$\begin{array}{r} 33 \\ -\ 26 \\ \hline 7 \end{array}$$

Cavab: Mağazada 7 qutu şirə qaldı.

4-cü addım • • • **Yoxla** • • • • • • cavabı yoxlamaq

Məsələnin həllini necə yoxlaya bilərəm: Məsələni başqa üsulla həll edərəm. Mağazada olan qutuların sayından gün ərzində satılan qutuların sayını çıxaram.

$$52 - (\overset{2}{19} + \overset{1}{26}) = 52 - 45 = 7$$

1. Anarın 36 stikeri var idi. O, 9 stikeri Səbinəyə, 8 stikeri isə Elxana bağışladı. Anarın neçə stikeri qaldı?

2. Parkda 35 uşaq oynayırdı. 16 uşaq evə getdi. Sonradan parka 9 uşaq da gəldi. Parkda neçə uşaq oldu?

3. Aşpaz iki cür salat düzəltdi. O, bir salata 14, digərinə isə bundan 8 ədəd az xiyar doğradı. Aşpaz iki salat üçün cəmi neçə xiyar istifadə etdi?

4. Lalə 62 rəngli kubdan ev modeli hazırladı. Bu kubların 24-ü qırmızı, 8-i ağ, qalanları isə göy rəngdə idi. Lalə neçə göy kubdan istifadə etdi?

5. Nənəsi Samir və dostları üçün bişirdiyi qutabları hər birində 6 ədəd olmaqla 3 qaba qoydu. Uşaqlar cəmi 12 qutab yedilər. Neçə qutab qaldı?

6. Laləgilin həyətində 32 qırmızı və 18 ağ gül var. O, ağ güllərdən 7 dənəsini dərdi. Həyətdə cəmi neçə gül qaldı?



ÜMUMİLƏŞDİRİCİ TAPŞIRIQLAR

1. Tərəzinin gözlərini bərabərləşdirmək üçün neçə kub götürmək və ya əlavə etmək lazımdır?

51 – □ = 18
51 = 18 + □



46 + □ = 55
46 = 55 – □



30 – □ = 7
30 = 7 + □

2. Şərtə əsasən mötərizəli ifadələr yazın və qiymətini hesablayın.

a) 50 və 40 ədədləri cəmindən 20 ədədini çıxın.
b) 42 ədədindən 8 və 4 ədədləri cəmini çıxın.
c) 53 ədədindən 24 və 14 ədədlərinin fərqini çıxın.

3. Məchulu tapın.

68	
?	24

□ + 24 = 68

72	
?	44

72 – □ = 44

80	
?	38

38 + □ = 80

?	
29	64

□ – 29 = 64

4. Verilmiş ədədlər içərisindən tam və onun hissələrini əmələ gətirən ədəd üçlüyünü müəyyən edin. Ədəd üçlüyündən istifadə edərək toplama və çıxmaya aid misallar yazın.

a) 12, 28, 40, 54 b) 32, 16, 18, 14 c) 68, 82, 24, 14

5. Hesablayın və müqayisə edin.

50 – (30 + 8) ∗ 12 43 ∗ 15 + 65 – 32 70 – (45 – 15) ∗ 70 – 45 – 15

6. Lalə 30 muncuqdan boyunbağı düzəltmək istədi. O, sapa əvvəl 16, sonra isə 8 muncuq düzdü. Lalə sapa daha neçə muncuq düzməlidir?



7. Təsvirə əsasən məsələ qurun. Mötərizəli ifadə yazmaqla həll edin.



VURMA VƏ BÖLMƏ



Hazırıqmı?

- Təxmin edin: kimin qarşısında daha çox oyuncaq var?
- Hər uşağın qarşısında neçə oyuncaq var? Bunu daha tez necə tapmaq olar?
- Kənardakı 15 oyuncaq adamı 3-3 düzdükdə neçə sıra alınar?

VURMA VƏ BÖLMƏ

26 Vurma

Araşdırma-müzakirə

Kino zallarının birində 5 sıra və hər sırada 4 oturacaq var. Digər zalda 4 sıra və hər sırada 5 oturacaq var.



- Təxminən hansı zalda daha çox oturacaq var?
- Hər zalda olan oturacaqların sayını daha tez necə tapmaq olar?

Açar sözlər
- vurma
- vuruq
- hasil
- sütun
- sətir

Öyrənmə

Sətir və **sütun**lar üzrə düzülmüş əşyaların ümumi sayını təkrar toplama, yaxud vurma ilə tapmaq olar. Hər sətir bir qrup təşkil edir.



$6 + 6 + 6 = 18$

3

$$3 \cdot 6 = 18$$

vuruq vuruq hasil

Burada 3 – sətirlərin, 6 – hər sətirdəki əşyaların, 18 isə əşyaların ümumi sayıdır.

Vuruqların yerini dəyişəndə hasil dəyişmir.



$3 \cdot 4 = 12$

$4 \cdot 3 = 12$

$$3 \cdot 4 = 4 \cdot 3$$

Bələdçi

Əşyaların sayını tapmaq üçün vurma əməlinə aid misal yazın.

• NÜMUNƏ •

$3 \cdot 4 = 12$

a)

□ · □ = □

b)

□ · □ = □

Müstəqil iş

1. Dairələrin ümumi sayını tapmaq üçün vurma əməlinə aid misal yazın.

a) 

b) 

c) 

d) 

- Ədədi 1-ə vurduqda hasil ədədin özünə bərabər olur.

$7 \cdot 1 = 7$ $\quad$ $1 \cdot 7 = 7$

- Ədədi sıfıra vurduqda hasil sıfıra bərabər olur.

$5 \cdot 0 = 0$ $\quad$ $0 \cdot 5 = 0$

2. Təsvirlərdən istifadə etməklə hasilləri tapın.

$3 \cdot 4$ $\quad$ $3 \cdot 3$ $\quad$ $1 \cdot 5$ $\quad$ $4 \cdot 1$ $\quad$ $4 \cdot 3$ $\quad$ $4 \cdot 2$ $\quad$ $2 \cdot 2$ $\quad$ $3 \cdot 1$

3. Hasili tapın.

$7 \cdot 1$ $\quad$ $0 \cdot 3$ $\quad$ $9 \cdot 0$ $\quad$ $10 \cdot 1$ $\quad$ $0 \cdot 10$ $\quad$ $6 \cdot 1$ $\quad$ $5 \cdot 0$ $\quad$ $0 \cdot 0$

Məsələ həlli

4. İdman yarışında uşaqlar 4 sıraya düzüldülər. Hər sırada 6 uşaq oldu. Yarışda neçə uşaq iştirak etdi?

5. Kimin daha çox stikeri var?



27 2-yə və 3-ə vurma

Araşdırma-müzakirə

Açar sözlər
- **2-yə vurma**
- **3-ə vurma**

Samir babasına bostandan yemiş yığmağa kömək etdi. Hər dəfə o, iki yemiş gətirib yeşiyə qoydu.



- 3 dəfədən, 4 dəfədən, 5 dəfədən sonra yeşikdə neçə yemiş olar?
- Bunu necə təsvir etmək olar?

Öyrənmə

Ədədi 2-yə vurmaq 2-ni həmin ədəd dəfə təkrar toplamaq deməkdir.

$$4 \cdot 2 = \underbrace{2 + 2 + 2 + 2}_{4} = 8$$



2 · 7 hasilini vuruqların yerini dəyişməklə belə tapmaq olar:

$$2 \cdot 7 = 7 \cdot 2 = 14$$

Bələdçi

Ulduzların ümumi sayını tapmaq üçün vurma əməlinə aid misal yazın.

• NÜMUNƏ •

$3 \cdot 2 = 2 \cdot 3 = 6$

a)

b)

c)

Müstəqil iş

1. Dəftərdə vurma əməlini dairələrlə təsvir edin və hasili tapın.

$2 \cdot 5$ $7 \cdot 2$ $2 \cdot 8$ $9 \cdot 2$ $2 \cdot 10$ $6 \cdot 2$ $2 \cdot 4$

- Ədədi 3-ə vurmaq 3-ü həmin ədəd dəfə təkrar toplamaq deməkdir.

$5 \cdot 3 = \underbrace{3 + 3 + 3 + 3 + 3}_{5} = 15$



3 · 6 hasilini vuruqların yerini dəyişməklə necə tapmaq olar?

2. Vuruqların yerini dəyişməklə cavabı tapın.

$3 \cdot 2$ $3 \cdot 4$ $2 \cdot 9$ $3 \cdot 8$ $3 \cdot 9$ $3 \cdot 7$ $3 \cdot 10$

3. Hesablayın və müqayisə edin.

$2 \cdot 7 * 11$ $2 \cdot 6 * 4 \cdot 3$ $3 \cdot 9 * 30 - 2$ $5 \cdot 3 * 5 \cdot 3$ $2 \cdot 5 * 4 \cdot 3$

Məsələ həlli

4. Lalənin anası 7 ədəd 2 litrlik balonda kompot bağladı. O, cəmi neçə litr kompot bağladı?

5. Otaqda 2 çilçıraq və hər çilçıraqda 8 lampa var. Çilçıraqlarda cəmi neçə lampa var?

6. Kərpiclər hansı fəza fiquru formasındadır? Üç kərpicin cəmi neçə üzü var?

7. Mağazaya hər birində 8 kq olan 3 kisə kartof gətirdilər. Gün ərzində 17 kq kartof satıldı. Mağazada neçə kiloqram kartof qaldı?

28 4-ə və 5-ə vurma

Araşdırma-müzakirə

Lalə çöplərdən kvadrat düzəltdi.

- Ona 3, 4 və 5 kvadrat düzəltmək üçün neçə çöp lazımdır?
- Bunu necə təsvir etmək olar?

Açar sözlər

- **4-ə vurma**
- **5-ə vurma**

Öyrənmə

Ədədi 4-ə vurmaq 4-ü həmin ədəd dəfə təkrar toplamaq deməkdir.

$$7 \cdot 4 = \underbrace{4 + 4 + 4 + 4 + 4 + 4 + 4}_{7} = 28$$



$1 \cdot 4$ $2 \cdot 4$ $3 \cdot 4$ $4 \cdot 4$ $5 \cdot 4$ $6 \cdot 4$ $7 \cdot 4$ $8 \cdot 4$ $9 \cdot 4$ $10 \cdot 4$

Fikirləş!

$4 \cdot 7$ hasilini vuruqların yerini dəyişməklə necə tapmaq olar?

Bələdçi

Ulduzların ümumi sayını tapmaq üçün vurmaya aid misal yazın.

• NÜMUNƏ •

$2 \cdot 4 = 4 \cdot 2 = 8$

a)

b)

c)

Müstəqil iş

1. Vuruqların yerini dəyişməklə cavabı tapın.

$4 \cdot 2$ $4 \cdot 3$ $4 \cdot 5$ $4 \cdot 6$ $4 \cdot 7$ $4 \cdot 8$ $4 \cdot 9$

2. Dairələrin içinə “ + ” , yaxud “ • ” işarələrindən uyğun olanı müəyyən edin.

3 ● 4 = 12	3 ● 4 = 7	7 ● 4 = 11	7 ● 4 = 28	4 ● 0 = 4	4 ● 0 = 0
8 ● 4 = 12	9 ● 4 = 36	4 ● 5 = 9	9 ● 4 = 13	10 ● 4 = 40	10 ● 4 = 14

- Ədədi 5-ə vurmaq 5-i həmin ədəd dəfə təkrar toplamaq deməkdir.

$$4 \cdot 5 = \underbrace{5 + 5 + 5 + 5}_{4} = 20$$



$1 \cdot 5$ $2 \cdot 5$ $3 \cdot 5$ $4 \cdot 5$ $5 \cdot 5$ $6 \cdot 5$ $7 \cdot 5$ $8 \cdot 5$ $9 \cdot 5$ $10 \cdot 5$

Fikirləş!

$5 \cdot 8$ hasilini vuruqların yerini dəyişməklə necə tapmaq olar?

3. Boş xanalara uyğun ədədləri tapın və ifadənin qiymətini hesablayın.

a) 

$\square \cdot \square = \square$

b) 

$\square \cdot \square = \square$

c) 

$\square \cdot \square = \square$

4. Vuruqların yerini dəyişməklə cavabı tapın.

$5 \cdot 2$ $5 \cdot 4$ $5 \cdot 6$ $5 \cdot 7$ $5 \cdot 9$ $5 \cdot 10$ $5 \cdot 3$

5. Hesablayın və müqayisə edin.

$5 \cdot 5 * 26$ $4 \cdot 9 * 5 \cdot 7$ $5 \cdot 6 * 6 \cdot 5$ $4 \cdot 10 * 54 - 10$

Məsələ həlli

6. Kiçik yumurta qabına 4 yumurta yerləşir. 5 belə qabda cəmi neçə yumurta var?



7. İdmançılar hər birinin qiyməti 9 manat olan 5 köynək aldılar. Onlar satıcıya 50 manat verdilər. Satıcı nə qədər pul qaytarmalıdır?

8. Bir kiçik bağlamanı bəzəmək üçün 8 sm, böyük bağlamanı bəzəmək üçün isə 10 sm lent işlənir. 5 kiçik və 1 böyük bağlamanı bəzəmək üçün cəmi neçə santimetr lent lazımdır?



29 Vurma cədvəli

Araşdırma-müzakirə **OYUN**

Açar sözlər
- vurma cədvəli
- sətir
- sütun

Oyunçu sayı: 2 və daha çox.

Hər oyunçu üçün ləvazimat:
- Şəkildə təsvir olunan cədvəl.
- Hər birində 1-dən 5-ə qədər ədədlər yazılmış qırmızı və göy rəngdə kartlar.



×	1	2	3	4	5
1					
2					
3					
4					
5					

Oyunun qaydası:
1. Kartlar üzüaşağı qoyulur və qarışdırılır.
2. Oyunçu bir qırmızı və bir göy kart açır.
3. Qırmızı kart birinci, göy kart isə ikinci vuruğu bildirir. Oyunçu bu ədədlərin hasilini tapır, cədvəldə uyğun sətir və sütunun kəsişdiyi xanaya yazır.
4. Açılmış kartlar kənara qoyulur və qurtarana qədər oyun davam edir.

Cavabları düzgün tapan oyunçu qalib gəlir.

Öyrənmə

Ədədlərin hasilini daha tez tapmaq üçün **vurma cədvəli**ndən istifadə etmək olar.

Məsələn, 3 · 9 hasili cədvəldən belə tapılır:
- Birinci sütundan 3, birinci sətirdən isə 9 ədədləri tapılır.
- Uyğun sətir və sütunların kəsişdiyi xanada bu ədədlərin hasili yerləşir:

$$3 \cdot 9 = 27$$

Vuruqların yerini dəyişəndə hasil dəyişmir:

$$9 \cdot 3 = 27$$

×	0	1	2	3	4	5	6	7	8	9	10
0	0	0	0	0	0	0	0	0	0	0	0
1	0	1	2	3	4	5	6	7	8	9	10
2	0	2	4	6	8	10	12	14	16	18	20
3	0	3	6	9	12	15	18	21	24	27	30
4	0	4	8	12	16	20	24	28	32	36	40
5	0	5	10	15	20	25	30	35	40	45	50
6	0	6	12	18	24	30	36	42	48	54	60
7	0	7	14	21	28	35	42	49	56	63	70
8	0	8	16	24	32	40	48	56	64	72	80
9	0	9	18	27	36	45	54	63	72	81	90
10	0	10	20	30	40	50	60	70	80	90	100

Fikirləş! Nə üçün 2-ci sətir və 2-ci sütunda yalnız sıfırlar yerləşir?

Bələdçi

Hasili tapın və vurma cədvəlindən istifadə etməklə cavabı yoxlayın.

• NÜMUNƏ •

2 · 3 = 6

×	0	1	2	3
0	0	0	0	0
1	0	1	2	3
2	0	2	4	6

1 · 3	4 · 0	5 · 3	3 · 4	2 · 5
3 · 7	4 · 2	2 · 8	5 · 6	2 · 9
3 · 9	4 · 6	1 · 9	0 · 10	4 · 9

Müstəqil iş

1. Şəkillərə əsasən vurmaya aid misallar yazın. Vurma cədvəlindən istifadə etməklə hasili tapın.

a)



b)



c)



• 5-ə qədər vurma cədvəlini belə də təsvir etmək olar.

1×1 = 1	2×1 = 2	3×1 = 3	4×1 = 4	5×1 = 5
1×2 = 2	2×2 = 4	3×2 = 6	4×2 = 8	5×2 = 10
1×3 = 3	2×3 = 6	3×3 = 9	4×3 = 12	5×3 = 15
1×4 = 4	2×4 = 8	3×4 = 12	4×4 = 16	5×4 = 20
1×5 = 5	2×5 = 10	3×5 = 15	4×5 = 20	5×5 = 25
1×6 = 6	2×6 = 12	3×6 = 18	4×6 = 24	5×6 = 30
1×7 = 7	2×7 = 14	3×7 = 21	4×7 = 28	5×7 = 35
1×8 = 8	2×8 = 16	3×8 = 24	4×8 = 32	5×8 = 40
1×9 = 9	2×9 = 18	3×9 = 27	4×9 = 36	5×9 = 45
1×10 = 10	2×10 = 20	3×10 = 30	4×10 = 40	5×10 = 50

2. Vurma cədvəlindən istifadə etməklə boş xanalardakı ədədləri tapın.

3 · □ = 21	□ · 6 = 36	□ · 5 = 30	8 · □ = 0
4 · □ = 32	□ · 4 = 24	5 · □ = 10	7 · □ = 49

3. Hasili tapın.

4 · 2	3 · 6	3 · 7	2 · 8	5 · 8	4 · 3	3 · 8	2 · 9
3 · 4	5 · 7	4 · 4	5 · 9	4 · 8	3 · 9	4 · 5	4 · 9

Məsələ həlli

4. Elxanın anası hər birində 6 paxlava olan 5 qutu aldı. O, cəmi neçə paxlava aldı?



5. Anarın 3 dənə onqəpikliyi, Lalənin isə 7 dənə beşqəpikliyi var. Kimin pulu daha çoxdur?

6. Lalə hər birində 8 muncuq olan 5 qolbaq düzəltdi. Onun 3 muncuğu artıq qaldı. Lalənin neçə muncuğu var idi?



MƏSƏLƏ VƏ MİSALLAR

1. Dairələrin ümumi sayını tapmaq üçün vurma əməlinə aid misallar yazın.

a) 

b)

c) 

d) 

2. Hasili tapın.

3 · 2	5 · 9	4 · 7	4 · 6	3 · 8	5 · 10	4 · 9
5 · 0	1 · 5	3 · 7	5 · 8	3 · 9	0 · 10	2 · 6

3. Hesablayın və müqayisə edin.

5 · 2 ∗ 12	4 · 4 ∗ 3 · 5	3 · 3 ∗ 2 · 5	40 – (30 – 10) ∗ 5 · 4

4. Bir arının 6 ayağı var. Beş arının cəmi neçə ayağı var?

5. Vurma cədvəlində hasili verilən ədədlərə bərabər olan bütün ədəd cütlərini tapın. Uyğun vurma əməlini yazın.

8 12 24 30

6. Vurma cədvəlindən istifadə etməklə suallara cavab verin.

a) Masada hər birində 5 karandaş olan bir neçə qutu var. Karandaşların ümumi sayı 29 ola bilərmi?

b) Yalnız 3 qəpikliklərlə 25 qəpik düzəltmək olarmı?

7. Sizcə, Səbinənin fikri doğrudurmu? Vurma cədvəlindən istifadə etməklə yoxlayın.



8. Qutuda 40 düymə var. Dərzi 4 köynəyin hər birinə 6 düymə tikdi. Qutuda neçə düymə qaldı?

9. Şəklə əsasən məsələ qurun.

30 Bölmə

Araşdırma-müzakirə

Açar sözlər
- bölmə
- bölünən
- bölən
- qismət

Uşaqlar əkmək üçün bağçaya 24 gül gətirdilər. Hər cərgəyə 6 gül əkdilər.
- Neçə cərgə alındı? Bunu necə tapmaq olar?
- Onlar hər cərgəyə 4 gül əksə idilər, neçə cərgə alınardı?

Öyrənmə

Sətirlərin, yaxud hər sətirdəki əşyaların sayını təkrar çıxma və ya bölmə əməli ilə tapmaq olar.



$15 - \underbrace{5 - 5 - 5}_{3} = 0$

$15 : 5 = 3$





$15 - \underbrace{3 - 3 - 3 - 3 - 3}_{5} = 0$

$15 : 3 = 5$

Burada 15 – əşyaların ümumi sayı, 3 – sətirlərin sayı, 5 isə hər sətirdəki əşyaların sayıdır.

Bələdçi

Sətirlərin və sətirdəki əşyaların sayını tapmaq üçün bölmə əməlinə aid misallar yazın.

• NÜMUNƏ •

24 : 8 = 3 24 : 3 = 8

a)



□ : □ = □
□ : □ = □

b)



□ : □ = □
□ : □ = □

Müstəqil iş

1. Cavabı bölmə əməli ilə tapın. Uyğun misalı yazın.

a) 10 konfeti hərəyə 2 ədəd olmaqla neçə uşağa paylamaq olar?

b) 15 fındığı 5 sincab arasında bərabər bölsək, hər sincaba neçə fındıq düşər?

- Sıfırdan fərqli istənilən ədədi özünə böldükdə qismət 1-ə bərabər olur.
  5 : 5 = 1
- Ədədi 1-ə böldükdə qismət ədədin özünə bərabər olur.
  5 : 1 = 5
- Sıfırı sıfırdan fərqli istənilən ədədə böldükdə qismət 0-a bərabər olur.
  0 : 5 = 0

DİQQƏT! Ədədi 0-a bölmək olmaz. ~~5 : 0~~

2. Təsvirlərdən istifadə etməklə bölmə əməlinə aid misallar yazın.


□ : □ = □
□ : □ = □


□ : □ = □
□ : □ = □


□ : □ = □
□ : □ = □


□ : □ = □
□ : □ = □


□ : □ = □
□ : □ = □


□ : □ = □
□ : □ = □


□ : □ = □
□ : □ = □


□ : □ = □
□ : □ = □

3. Qisməti tapın.

18 : 2	0 : 2	18 : 3	21 : 3	7 : 1	36 : 4	9 : 9
8 : 4	24 : 4	7 : 7	12 : 3	0 : 4	6 : 1	5 : 5

Məsələ həlli

4. Mağazada 18 kq pomidor var idi. Bu pomidorları iki yeşiyə kütləsinə görə bərabər yığdılar. Hər yeşikdə neçə kiloqram pomidor oldu?

5. Anar qutuda olan eyni piramidaların cəmi 15 üzü olduğunu müəyyən etdi. Qutuda neçə piramida var idi?

31 Vurma və bölmənin əlaqəsi

Araşdırma-müzakirə

Açar sözlər
- dəfə az
- dəfə çox

Lalə stikerləri vərəqə şəkildəki kimi yapışdırdı.

- Təsvirə uyğun vurma və bölməyə aid hansı misalları yazmaq olar?

Öyrənmə

Toplama və çıxma kimi, vurma və bölmə əmelləri də bir-biri ilə əlaqəlidir.





$4 \cdot 5 = 20$

$5 \cdot 4 = 20$

$20 : 4 = 5$

$20 : 5 = 4$

×	0	1	2	3	4	5
0	0	0	0	0	0	0
1	0	1	2	3	4	5
2	0	2	4	6	8	10
3	0	3	6	9	12	15
4	0	4	8	12	16	20
5	0	5	10	15	20	25

Bölmə əmələnini yerinə yetirərkən vurmadan necə istifadə etmək olar?

Fikirləş!

Bələdçi

Nümunəyə uyğun olaraq vurma və bölməyə aid misallar yazın.

• NÜMUNƏ •



$3 \cdot 6 = 18$

$6 \cdot 3 = 18$

$18 : 3 = 6$

$18 : 6 = 3$

a)



□ · □ = □

□ · □ = □

□ : □ = □

□ : □ = □

b)

□ · □ = □

□ · □ = □

□ : □ = □

□ : □ = □

Müstəqil iş

1. Vurma və bölmənin əlaqəsinə aid misallar yazın. “?” işarəsinin yerinə uyğun ədədləri müəyyən edin.

a) 2, 7, 14

□ · □ = □

□ · □ = □

□ : □ = □

□ : □ = □



b) 5, 9, 45

□ · □ = □

□ · □ = □

□ : □ = □

□ : □ = □



c) 3, 9, 27

□ · □ = □

□ · □ = □

□ : □ = □

□ : □ = □



- Vurma cədvəlindən istifadə etməklə qisməti tapmaq olar.

Məsələn: 6 : 2 = ?

- 1-ci sütunda 2 ədədi tapılır.
- 2 ədədi olan sətirdə 6 tapılır.
- 6 ədədinin yerləşdiyi sütunun ilk ədədi qisməti göstərir.

×	0	1	2	3
0	0	0	0	0
1	0	1	2	3
2	0	2	4	6

×	0	1	2	3
0	0	0	0	0
1	0	1	2	3
2	0	2	4	6

×	0	1	2	3
0	0	0	0	0
1	0	1	2	3
2	0	2	4	6

$2 \cdot 3 = 6 \Rightarrow 6 : 2 = 3$

2. Verilən misalla əlaqəli bölmə əməlinə aid iki misal yazın.

a) $4 \cdot 8 = 32$ b) $5 \cdot 7 = 35$ c) $4 \cdot 6 = 24$ d) $2 \cdot 9 = 18$ e) $6 \cdot 5 = 30$

3. Verilən misalla əlaqəli vurma əməlinə aid iki misal yazın.

a) $40 : 5 = 8$ b) $18 : 3 = 6$ c) $27 : 9 = 3$ d) $36 : 4 = 9$ e) $15 : 3 = 5$

4. Vurma və bölmə əməlləri ilə əlaqəsi olan üç ədədi müəyyən edin. Uyğun misallar yazın.

a) 16, 2, 9, 18 b) 5, 8, 40, 45 c) 30, 4, 5, 20 d) 3, 9, 10, 30

5. Boş xanalardakı ədədləri müəyyən edin.

a) $4 \cdot \square = 4$ $4 : 1 = \square$ $\square \cdot 4 = 4$ $4 : \square = 1$ b) $3 \cdot \square = 12$ $12 : 4 = \square$ $\square \cdot 3 = 12$ $12 : \square = 4$

6. Üçbucağın uyğun hissələrində vurma və bölmə ilə əlaqəli 3 ədəd yazılmalıdır. Boş hissəyə müvafiq ədədi müəyyən edin.

a) 

b) 

c) 

d) 

e) 

7. Aynur lövhədə bəzi misalları səhv həll etdi. Vurma əməlini bölmə, bölmə əməlini isə vurma ilə yoxlamaqla səhvləri tapın.

a)
$9 : 3 = 4$
$32 : 4 = 8$
$3 : 3 = 3$
$36 : 4 = 10$

b)
$2 \cdot 6 = 18$
$7 \cdot 5 = 40$
$5 \cdot 1 = 1$
$4 \cdot 4 = 16$

c)
$20 : 5 = 5$
$28 : 4 = 6$
$5 \cdot 7 = 40$
$3 \cdot 9 = 21$

- Göy şarlar yaşıl şarlardan 3 dəfə çoxdur.

$3 \cdot 4 = 12$

- Yaşıl şarlar göy şarlardan 3 dəfə azdır.

$12 : 3 = 4$



8. Misal yazmaqla dəsmalların altındakı kekslərin sayını tapın.



Məsələ həlli



9. Şəklə əsasən suallara cavab verin. Uyğun misallar yazın.

- Hansı meyvənin sayı narların sayından 4 dəfə çoxdur?
- Hansı meyvənin sayı almaların sayından 2 dəfə azdır?
- Almaların sayı çiyələklərin sayından neçə dəfə azdır?

10. Anar 24 karandaşı 4 qutuya bərabər sayda yığdı.

- O hər qutuya neçə karandaş qoydu?
- Hər qutuya 4 karandaş yığması üçün Anara neçə qutu lazım olar?

11. Qələmin qiyməti 35 qəpik, pozanın qiyməti isə bundan 5 dəfə azdır. Pozanın qiyməti neçə qəpikdir?

12. Marketdə bir gündə 4 kq soğan, bundan 5 dəfə çox pomidor satıldı.

- Marketdə neçə kiloqram pomidor satıldı?
- Marketdə satılan kartof pomidordan 2 dəfə az idi. Marketdə neçə kiloqram kartof satıldı?

ÜMUMİLƏŞDİRİCİ TAPŞIRIQLAR

1. Şəkillərə uyğun vurma və bölmə əməllərinə aid misallar yazın.

2. Hesablayın.

12 : 2	5 · 4	18 : 3	1 · 4	24 : 4	2 · 5	3 · 9
10 : 5	2 · 0	20 : 4	12 : 3	21 : 3	5 · 6	35 : 5

3. Hesablayın və müqayisə edin.

16 : 4 ∗ 3	2 · 4 ∗ 24 : 3	1 · 8 ∗ 22 – 18 + 5	4 · 4 ∗ 3 · 5
30 : 5 ∗ 2 · 3	3 · 8 ∗ 48 – (28 – 10)	28 – (18 + 2) ∗ 35 : 5	5 · 0 ∗ 4 · 0

4. Uyğun misallar yazmaqla suallara cavab verin.

a) Vuruqlardan biri 2, digəri 7 olarsa, hasil neçəyə bərabərdir?
b) Bölünən 20, bölən 5 olarsa, qismət neçədir?
c) 4 ədədindən 3 dəfə böyük olan ədəd hansıdır?
d) 16 ədədindən 8 dəfə kiçik olan ədəd neçədir?
e) 8-in 4 misli neçəyə bərabərdir?

5. Elxanın 7 yaşı var. Atası ondan 5 dəfə böyükdür. Elxanın atasının neçə yaşı var?

6. Kitabxanaya 28 kitab gətirildi. Kitabxanaçı bu kitabları 4 rəfə bərabər yerləşdirdi. Hər rəfdə neçə kitab oldu?

7. Mağazada 3 gün ərzində 27 qutu meyvə şirəsi satıldı. Hər gün eyni sayda meyvə şirəsi satılarsa, bir gündə neçə qutu meyvə şirəsi satıldı?

8. Qutuda 8 kub var. Bu, konusların sayından 2 dəfə çoxdur. Qutuda neçə konus var? Sizcə, kimin cavabı doğrudur?



9. Pul qabında ancaq 3 qəpikliklər var. Elxan onları sayıb pul qabında cəmi 16 qəpik olduğunu söylədi. Sizcə, o doğru söylədimi?

10. Samirin kürəciklərinin sayını 5-ə vurduqda 30 alınır.
- Samirin neçə kürəciyi var?
- Anarın kürəcikləri Samirin kürəciklərindən 2 dəfə çoxdur. Anarın neçə kürəciyi var?

11. Səbinənin gizlətdiyi fəza fiqurunun 5 təpəsi, 8 tili var.
- Səbinə əlində hansı fiquru gizlədib?
- Bu fiqurun neçə üzü var?
- 4 belə fiqurun cəmi neçə üzü var?

12. Parkda 8 söyüd ağacı və bundan 2 dəfə çox şam ağacı əkdilər.
- Parkda neçə şam ağacı əkdilər?
- Parkda cəmi neçə ağac əkdilər?

13. Bidonda 20 l süd var idi.
Bu bidondan hər biri 3 l tutan 4 balonu süd töküb doldurdular.
- Balonlara cəmi neçə litr süd tökdülər?
- Bidonda neçə litr süd qaldı?



14. Aynurun 8 stikeri var. O bunları bir neçə dostuna bərabər sayda paylamaq istədi. Aynur neçə dostuna və nə qədər stiker paylaya bilər? Bir neçə nümunə göstər.

ƏDƏDLƏR (500-ə qədər). PULLAR

Hazırıqmı?

- Samirin anası aldığı mallar üçün neçə manat ödəməlidir?
- O bunu hansı pullarla ödəyə bilər?
- Bir köynək üçün ödənilən pula neçə papaq almaq olar?

ƏDƏDLƏR (500-ə qədər). PULLAR

32 500-ə qədər sayma

Araşdırma-müzakirə

Açar sözlər
- yüz
- beş yüz
- yüzlük
- on-on sayma
- əlli-əlli sayma
- yüz-yüz sayma

"Nərdivan" oyunu
Oyunçu sayı: 2 və daha çox.
Ləvazimat: zər və oyunçu sayı qədər rəngli düymələr.
Oyunun qaydası:
- Düymələr başlanğıc xanaya qoyulur. Hər oyunçu növbə ilə zər atır. Düşən xal qədər irəli sayır və düyməsini uyğun xanaya qoyur. Düymə nərdivanın aşağı ucu olan xanaya düşərsə, o nərdivanın yuxarı ucu olan xanaya keçirilir. Oyunçular üzərindən keçdikləri boş xanalardakı ədədi birgə tapırlar. 140 ədədinə ilk çatan oyunçu qalib gəlir.



Öyrənmə

10 təklik 1 onluq təşkil edir.



10 təklik = 1 onluq

10 onluq 1 yüzlük təşkil edir.



10 onluq = 1 yüzlük

3 – üç



23 – iyirmi üç



123 – yüz iyirmi üç



223 – iki yüz iyirmi üç





On-on sayma



Əlli-əlli sayma



Yüz-yüz sayma



200 ədədi neçə onluqdan ibarətdir?

Bələdçi

Şarların sayını tapın.

• NÜMUNƏ •



200

a)

b)

Müstəqil iş

1. Ədədləri oxuyun və uyğun sayda kubları müəyyən edin: 225, 351, 242, 323.



2. Buraxılmış ədədləri müəyyən edin.







3. Boş yerlərə uyğun ədədləri tapın.

a) 98, 99, ___ , ___ , ___

b) 80, 90, ___ , ___ , ___

c) 250, 300, 350, ___ , ___ , ___

d) 90, 95, ___ , ___ , ___

Məsələ həlli

4. Anar hər axşam həyətdə atdığı addımların sayını cədvəldə yazır. O bu qayda ilə gəzərsə, bazar günü neçə addım atacaq?

B.e	Ç.a	Ç	C.a	C	Ş	B
210	220	230				

33 Yüzlük, onluq və təklik

Araşdırma-müzakirə

Kassir kassadakı kağız pulları saymaq üçün masanın üstünə düzdü.

- Kassada neçə manat pul var idi?
- Bunu necə bilmək olar?

Açar sözlər

- yüzlük
- onluq
- təklik
- üçrəqəmli ədəd

Öyrənmə

Üç rəqəmlə yazılan ədədlər **üçrəqəmli ədəd**lərdir. Məsələn: 100, 238, 306 və s. Üçrəqəmli ədədlərdə sağdan birinci rəqəm **təklik**lərin, ikinci rəqəm **onluq**ların, üçüncü rəqəm isə **yüzlük**lərin sayını göstərir.

238 ədədində 2 yüzlük, 3 onluq, 8 təklik var.



Yüzlüklər	Onluqlar	Təkliklər
2	3	8



DİQQƏT! Üçrəqəmli ədədin ilk rəqəmi 0 ola bilməz.

Bələdçi

Kubların sayına uyğun olaraq yüzlük, onluq və təkliklərin sayını tapın.

• NÜMUNƏ •



Yüzlüklər	Onluqlar	Təkliklər
3	0	2



a) 

b) 

c) 

Müstəqil iş

1. Cəmi neçə şar var? Uyğun ədədin yüzlük, onluq və təkliklərinin sayını yazın.

a)



b)

2. Ədədlərin yüzlük, onluq və təkliklərinin sayını müəyyən edin.

• NÜMUNƏ •

156 = 1 yüzl. 5 onl. 6 təkl.

190 207 222 389 482 500 227 345 543

3. Uyğun üçrəqəmli ədədləri yazın.

a) İki yüzlük, dörd onluq, üç təklik

b) Dörd yüzlük, sıfır onluq, səkkiz təklik

c) Üç yüzlük, doqquz onluq, sıfır təklik

d) Üç yüzlük, iki onluq, iki təklik

e) Bir yüzlük, sıfır onluq, bir təklik

f) Üç yüzlük, sıfır onluq, sıfır təklik

Məsələ həlli

4. Marketə 4 böyük qutu və 5 kiçik qabda yumurta gətirdilər. Kiçik yumurta qabında 10 yumurta var. Hər qutuya isə 10 belə yumurta qabı yığılıb. Marketə cəmi neçə yumurta gətirdilər?



5. Samir fikrində üçrəqəmli ədəd tutdu. Bu ədəddə 3 yüzlük, 4 onluq var. Ədədin təkliklərinin sayı yüzlük və onluqların sayları cəminə bərabərdir. Bu hansı ədəddir?

6. Üçrəqəmli ədəddə 2 yüzlük var. Bu ədəddə təkliklərin sayı sıfırdır. Onluqların sayı yüzlüklərin sayından 4 dəfə çoxdur. Bu hansı ədəddir?

34 Pullar

Araşdırma-müzakirə

- Samir və Aynurun hər birinin nə qədər pulu var?
- Onların pullarını necə saymaq olar?

Açar sözlər

- **qəpik**
- **manat**
- **məbləğ**



Öyrənmə

Pulları saymaqla ümumi **məbləğ**i tapmaq olar. Pulları böyükdən kiçiyə sıralamaqla onları saymaq daha asandır.







Bələdçi

Pulları sıralamaqla sayın.

• NÜMUNƏ •

a)

b)

c)

Müstəqil iş

1. Pulları sayın.

a)

b)

c)

d)

e)

f)

- 1 manatlıq ən kiçik kağız puldur.
  1 manatı müxtəlif qəpik pullarla düzəltmək olar.

1 manat = 100 qəpik

İki 50 qəpiklik

Beş 20 qəpiklik

On 10 qəpiklik

İyirmi 5 qəpiklik

Fikirləş!

Dörd 50 qəpiklik neçə manatdır?

2. Pulları 1 manata tamamlamaq üçün neçə qəpik əlavə etmək lazımdır?

a)

b)

c)

3. Sual işarəsinin yerinə hansı kağız pul olmalıdır?

a) birlikdə bir **?** manatlığa bərabərdir.

b) birlikdə bir **?** manatlığa bərabərdir.

4. Hansı pul qabındakı pulun məbləği daha çoxdur?

a)

b)

Məsələ həlli

5. Pul qabındakı ümumi məbləğ onun yanında yazılıb. Dəsmalın altında hansı pul ola bilər?

a) 63 qəp

b) 46 man

6. Anar pullarını belə saydı. Onun hansı qəpik pulları var?

? ? ?

50 qəp 70 qəp 80 qəp

7. Səbinə və Samirin pulları qarışıb. Səbinənin pulu 30 qəpikdən çox, 35 qəpikdən azdır. Hər uşağın nə qədər pulu var?

35 Alış-veriş

Araşdırma-müzakirə



Açar sözlər
- **qiymət**
- **ödəniləcək məbləğ**

- Pul qabında nə qədər pul var?
- Alıcı bu pula hansı meyvələrdən neçə kiloqram ala bilər?

Öyrənmə

Bir neçə malı alanda **ödəniləcək məbləği** tapmaq üçün bu malların **qiyməti** toplanır. Məsələn, qiyməti 2 manat, 4 manat, 5 manat və 18 manat olan ərzaqları almaq üçün ödəniləcək məbləği belə tapmaq olar:

$$2₼ + 4₼ + 5₼ + 18₼ = 29₼$$



Eyni maldan bir neçə dənə aldıqda ümumi məbləği vurma əməli ilə də tapmaq olar. Məsələn, qiyməti 2 manat olan kekslərdən 4 ədəd almaq üçün 8 manat pul ödəmək lazımdır:

$$4 \cdot 2₼ = 8₼$$



Bələdçi

• NÜMUNƏ •

9₼+15₼ = 24₼

Mallar üçün ödəniləcək məbləği tapın.

a)

b)



Müstəqil iş

1. Şəkildəki ləvazimatlardan 3 dənə alan alıcı nə qədər pul ödəməlidir? Vurma əməlindən istifadə etməklə hesablayın.

a) 

b)

c) 

d) 

- Malı almaq üçün ödəniləcək məbləği müxtəlif pullarla düzəltmək olar.

2. Göstərilən pullardan istifadə etməklə malları almaq üçün ödəniləcək məbləği necə düzəltmək olar?

a) 

b)

c)

3. Malların qiymətini hansı pullarla ödəmək olar? Bir neçə nümunə göstərin.

a) 

b)

c)

d)

Məsələ həlli

4. Südün 1 litrinin qiyməti 2 manatdır. 4 *l* süd almaq üçün neçə manat pul ödəmək lazımdır?



5. Elxanın üç 10 manatlığı və bir 5 manatlığı var. Onun pulu skuter almağa çatarmı?



6. Samirin anası 3 köynək və 1 şalvar aldı.
- Malların ümumi məbləği neçə manatdır?
- O, satıcıya 50 manat verdi. Satıcı neçə manat qaytardı?

7. Lalənin pul qabında on 50 qəpiklik var.
- O, oyuncaq ayını almaq üçün neçə 50 qəpiklik ödəməlidir?
- Onun neçə manat pulu qalacaq?



8. Aynur pul qabındakı pullarla qardaşına 2 hədiyyə aldı. Hədiyyələrdən biri skeytborddur. O biri hədiyyə hansıdır?



9. Mağazada satılan konfetin 1 kiloqramının qiyməti yanında yazılıb. Alıcı 3 kq konfet üçün 13 manat pul ödədi. O hansı konfetdən neçə kiloqram aldı?



ÜMUMİLƏŞDİRİCİ TAPŞIRIQLAR

1. Boş yerlərə uyğun olan ədədləri tapın.

a) 345, 346, ___ , 348, ___ , 350, ___ , ___
b) 160, ___ , 180, 190, ___ , 210, ___ , ___
c) 100, 150, ___ , ___ , ___
d) ___, ___ , 300, 400, ___

2. Ədədlərin yüzlük, onluq və təkliklərinin sayını müəyyən edin.

187 236 350 405 210 374 112 301 465 500 222

3. Samirin pul qabındakı 4 ədəd qəpik pulun ümumi məbləği 55 qəpikdir. Onun hansı qəpikləri ola bilər?

4. Lalənin atası 3 qutu peçenye aldı. O, satıcıya 50 manat verdi. Satıcı nə qədər pul qaytardı?

5. Səbinə 2 qutu rəngli karandaş və 2 bloknot aldı. O nə qədər pul ödədi?



6. Anar hər birinin qiyməti 30 qəpik olan 3 dəftər aldı. O, satıcıya 1 manat verdi. Satıcı pulun qalığını hansı qəpiklərlə qaytara bilər?



ÖLÇMƏ. MƏLUMATLARIN TƏSVİRİ

Hazırıqmı?

- Lalənin anası hündürlüyü 25 sm olan ikimərtəbəli tort hazırlamaq istəyir. Tortun ikinci mərtəbəsinin hündürlüyü nə qədər olacaq?
- Tortu hazırlayarkən tərəzi və ölçü qabından nə üçün istifadə etmək olar?
- Onlar tortu saat 1 tamama hazır etmək istəyirlər. Bunun üçün onların neçə saat vaxtı qalıb?
- Sizcə, Lalənin anası tortu hansı bayram üçün bişirir? Bunu necə təyin etmək olar?

36 Uzunluq

Araşdırma-müzakirə **Cütlərlə iş**

Ləvazimat: ölçü lenti.

İşin gedişi:

1. Əvvəlcə təxmin etməklə, sonra isə ölçməklə cədvəli tamamlayın.
2. Təxmini cavablarla ölçmədə alınan cavabları müqayisə edin.

• Hansı əşyaları ölçəndə fərq daha az alındı?



Açar sözlər

- santimetr (sm)
- desimetr (dm)
- metr (m)

Əşya adı	Təxmini (sm)	Ölçməklə (sm)
Karandaşın uzunluğu		
Stulun hündürlüyü		
Qapının eni		
Partanın eni		

Öyrənmə

Bəzən əşyaların uzunluğunu santimetrlə ölçmək əlverişli olmur. Bunun üçün metrdən istifadə etmək daha rahatdır.

100 santimetr 1 **metr**dir.
Metr qısa olaraq "m" kimi yazılır.
1 m = 100 sm



Ətrafınızda hansı əşyaların uzunluğunu metrlə ölçə bilərsiniz?

Bələdçi

Əşyaların uzunluğu neçə metrdir?

• NÜMUNƏ •



200 sm = 2 m

a)



b)



Müstəqil iş

1. Samir stulun uzunluğunu addımla ölçməklə 1 addım olduğunu müəyyən etdi. Sizcə, stol və lövhənin uzunluqları Samirin addımları ilə təxminən neçə addım olar?



2. Lalənin əlində tutduğu çubuğun uzunluğu 1 metrdir. O bu çubuqla əşyaların ölçülərini tapmaq istədi. Hər bir əşyanın göstərilən ölçüləri təxminən neçə metr olar?



3. Əşyaların göstərilən ölçülərini santimetrlə yazın.



• Bəzən uzunluğu 1 metrdən qısa olan əşyaların uzunluğu **desimetr**lə də ifadə edilir. 10 santimetr 1 desimetrdir. Desimetr qısa olaraq “dm” kimi yazılır.



Fikirləş!

1 metr neçə desimetrdir?

4. Əşyaların göstərilən ölçülərini desimetrlə yazın.

5. Santimetrlə ifadə edin.

a) 2 dm b) 10 dm c) 3 dm d) 7 dm e) 4 dm f) 8 dm

Məsələ həlli

6. Küçə fənəri işıqfordan neçə metr hündürdür?



7. Göy lent qırmızı lentdən neçə santimetr uzundur?



8. Lalə düzbucaqlının bir tərəfini xətkeşlə, qarşı tərəfini isə qısqaclarla ölçdü. Bir qısqacın uzunluğu neçə santimetrdir?



9. Kimin məktəbə getdiyi yol daha qısadır? Neçə metr qısadır?



37 Kütlə

Araşdırma-müzakirə

• Tərəzinin gözlərini bərabərləşdirmək üçün sağ tərəfə hansı kubdan neçə dənə qoymaq olar?



Açar sözlər

- **kütlə**
- **kiloqram (kq)**
- **qram (q)**

Öyrənmə

Əşyaların ağır, yaxud yüngül olması onların **kütlə**sindən asılıdır. Kütləni ölçmək üçün tərəzilərdən istifadə olunur. Kütlə çox vaxt **kiloqram**la (kq) ifadə edilir.









Kütləsi 1 kq-dan daha yüngül olan əşyaların kütləsini **qram**la ifadə etmək rahatdır. Qısa şəkildə “q” kimi yazılır.



Bələdçi

Əşyaların kütləsini tapın.

• NÜMUNƏ •



$3 \cdot 5\ q = 15\ q$

a)



b)



Müstəqil iş

1. Hər meyvənin kütləsi nə qədərdir? Ən ağır və ən yüngül meyvəni müəyyən edin.



2. Bostan məhsullarının kütləsini tapın. Onlardan hansı ən yüngül, hansı ən ağırdır?



3. Əşyaların kütləsini hansı vahidlə ölçmək daha uyğundur: qramla, yoxsa kiloqramla?

Məsələ həlli

4. Şəklə əsasən suallara cavab verin:

- 1 çay qutusu neçə qramdır?
- 6 belə çay qutusunun kütləsi nə qədərdir?



5. Lalə pomidor, bibər və kökü tərəzidə ayrı-ayrılıqda çəkdi. Pomidor 95 q gəldi.

- Bibər pomidordan 48 q yüngül oldu. Bibərin kütləsi nə qədər idi?
- Kök bibərdən 25 q ağır oldu. Kökün kütləsi nə qədər idi?



6. Şəkər tozu 1 kq, 3 kq və 5 kq-lıq torbalarda satılır. 10 kq şəkər tozu almaq üçün hansı torbadan neçə dənə götürmək olar?

38 Tutum

Araşdırma-müzakirə



Açar sözlər
- **tutum**
- **litr (*l*)**

Anar tutumu 10 *l* olan akvariumu doldurmaq üçün şəkildəki qabların yalnız birindən istifadə etmək istədi.
- Akvariumu doldurmaq üçün qırmızı qabla neçə dəfə su tökmək lazımdır?
- Anar hansı qabla akvariumu daha tez doldura bilər?

Öyrənmə

Qabların **tutum**u onların nə qədər su, yaxud başqa bir maye tuta bildiyini göstərir. Müxtəlif formalı qabların tutumu eyni ola bilər.

Tutum, adətən, **litr**lə (*l*) ifadə olunur.

5 stəkanın tutduğu su təxminən 1 litrdir.



2 *l*, 3 *l* və 4 *l* su təxminən neçə stəkan suya bərabərdir?

Bələdçi

Hansı qabın tutumu neçə litr ola bilər? Qabları tutumuna görə böyükdən kiçiyə sadalayın.

Müstəqil iş

1. Qablarda cəmi neçə litr su var? Uyğun misal yazın.

a)



b)



2. Kiçik qabları böyük qabdan su töküb doldurdular. Böyük qabda neçə litr su qaldı?

a)



b)



c)



Məsələ həlli

3. Hər qazanı doldurmaq üçün tutumu 2 *l* olan qabla neçə dəfə su tökmək lazımdır?



4. Qabı 5 dəfə su ilə doldurub boş vedrəyə tökdülər. Vedrədə neçə litr su oldu?

5. 24 *l* südü 3 litrlik balonlara tökdülər. Neçə balon alındı?

6. Mağazaya səhər 90 *l* süd gətirdilər. Günortaya qədər 47 *l*, günortadan sonra isə 35 *l* süd satıldı. Mağazada nə qədər süd qaldı?

7. Şirniyyat hazırlayan bir fabrik həftə ərzində 64 *l*, digəri isə bundan 29 *l* az yağ işlədir. İki fabrik bir həftədə cəmi neçə litr yağ işlədir?

MƏSƏLƏLƏRİ HƏLL EDİN

- MƏSƏLƏNİ ANLA
- PLAN QUR
- HƏLL ET
- YOXLA

1. Xalçanın uzunluğu və eni neçə santimetrdir? Xalçanın eni uzunluğundan neçə santimetr qısadır?



2. Elxanla Səbinə eyni binada yaşayırlar. Onlar məktəbdən birlikdə çıxdılar. Səbinə birbaşa evə getdi. Elxan isə əvvəlcə marketə baş çəkdi, sonra evə getdi. Elxan neçə metr çox yol qət etdi?



3. Marketdə meyvələrin 1 kiloqramının qiyməti hər birinin altında yazılıb. 3 kq banan və 2 kq alma alan alıcı cəmi neçə manat ödəməlidir?

• 5 manata hansı meyvədən neçə kiloqram almaq olar?



4. Bir un paketinin kütləsini tapın.

5. Tutumu 3 l olan balonu 6 dəfə su ilə doldurub boş 20 litrlik qaba tökdülər. Qabın dolması üçün daha neçə litr su tökmək lazımdır?



39 Təkrarlanan hadisələr

Araşdırma-müzakirə

Açar sözlər

- **mütləq olacaq**
- **ola bilər**
- **ola bilməz**

Lalə qolbağına düzdüyü sonuncu muncuğun sarı olmasını istədi.
O, torbaların içinə baxmadan hərəsindən bir muncuq götürdü.

- Onun hansı torbadan götürdüyü muncuq mütləq sarı olacaq?
- Onun hansı torbadan götürdüyü muncuq sarı ola da bilər, olmaya da bilər?
- Onun hansı torbadan götürdüyü muncuq sarı ola bilməz?
- Muncuqlar qolbağa hansı qayda ilə düzülüb? Bu qayda neçə dəfə təkrarlanır?

Öyrənmə

Elə hadisələr var ki, onlar mütləq baş verir. Məsələn: “Gecədən sonra mütləq gündüz olacaq”.

Mütləq olacaq.

Elə hadisələr var ki, onlar baş verə də bilər, verməyə də bilər. Məsələn: “Sabah hava buludlu olacaq”.

Ola bilər.

Amma elə hadisələr də var ki, onların baş verməsi mümkün deyil. Məsələn: “Gecə günəş çıxacaq”.

Ola bilməz.

Bələdçi

Qutuda 2 qırmızı və 1 sarı düymə var. Lalə baxmadan qutudan 2 düymə çıxartdı.

İki düymədən biri qırmızıdır.	Ola bilməz.
İki düymədən biri göydür.	Ola bilər.
İki düymədən biri sarıdır.	Mütləq olacaq.

Müstəqil iş

1. Ədədlərin yazılış qaydasını müəyyən edin. Hər sualın düzgün cavabını tapın.

a) 1, 3, 5, ...	Növbəti ədəd 7 ola bilərmi?	Ola bilməz.
b) 2, 4, 6, 8, ..., ...	Növbəti ədədlərdən biri tək ədəd ola bilərmi?	Ola bilər.
c) 0, 15, 30, ..., ...	Növbəti ədədlərdən istənilən birini götürsək o, cüt ədəd ola bilərmi?	Mütləq olacaq.

- Bəzi hadisələr təkrarlana bilər. Məsələn, günün vaxtları, həftənin günləri, aylar, fəsillər daim təkrarlanır.



- İlin ay, həftə və günlərini bilmək üçün təqvimdən istifadə olunur. Məsələn, şəkildəki təqvimə əsasən, mayın 1-i cümə günüdür.

MAY 2021

B.e	Ç.a	Ç	C.a	C	Ş	B
					1	2
3	4	5	6	7	8	9
10	11	12	13	14	15	16
17	18	19	20	21	22	23
24	25	26	27	28	29	30
31						

2. Dərsliyin 75-ci səhifəsindəki təqvimə əsasən suallara cavab verin.

a) Sentyabr ayının 15-i həftənin hansı günüdür?

b) Bazar günü ayın tək günləri ola bilərmi?

c) Ayda 32 gün ola bilərmi?

d) Hansı ayların ilk günləri həftənin bazar günüdür?

Məsələ həlli

3. Samir kartlara baxmadan ikisini götürdü.

- Bu kartlardakı ədədlərin hasili cüt ədəd ola bilərmi?
- Bu ədədlərin hasili 10-dan kiçik ola bilərmi?
- Bu ədədlərin hasili sıfıra bərabər ola bilərmi?

40 Saat

Araşdırma-müzakirə



Açar sözlər
- saat
- saat əqrəbi
- dəqiqə əqrəbi
- tamamdır
- yarısıdır
- işləyib
- qalıb

Rəsm məşğələsi saat 10 tamamda başlayır.

- Sizcə, uşaqlardan kim tez, kim gec, kim isə vaxtında gəldi?

Öyrənmə

Qısa əqrəb saatı, uzun əqrəb dəqiqəni göstərir.

Dəqiqə əqrəbi 12-nin üstündə olanda **"Saat tamamdır"** deyilir.

Dəqiqə əqrəbi 6-nın üstündə olanda **"Saat yarısıdır"** deyilir.

Saat 1 tamamdır. *Saat 2-nin yarısıdır.* *Saat 2 tamamdır.*

Dəqiqə əqrəbi tam bir dövrü 60 dəqiqəyə edir. Həmin vaxt ərzində saat əqrəbi 1 vahid irəli gedir:
1 saat = 60 dəqiqə.



Dəqiqə əqrəbi bir ədəddən növbəti ədədə 5 dəqiqəyə keçir.



Yarım saat neçə dəqiqədir?

Bələdçi

Saat neçədir?

• NÜMUNƏ •

Saat 5-in yarısıdır.



Müstəqil iş

1. Hər bir saat üçün suallara cavab verin.

a) Saat neçəni göstərir? b) Yarım saat əvvəl neçəni göstərirdi?

c) Yarım saat sonra neçəni göstərəcək?

2. Hər saatın göstəricisinə əsasən uyğun vaxtları söyləyin.

a) yarım saat əvvəl; b) 1 saat əvvəl; c) yarım saat sonra; d) 2 saat sonra.

• Dəqiqə əqrəbi 12 və 6 arasında olanda “**işləyib**” deyilir.

5 dəqiqə sonra

5 dəqiqə sonra

Saat 9 tamamdır. *Saat 10-a 5 dəqiqə işləyib.* *Saat 10-a 10 dəqiqə işləyib.*

3. Saat neçədir?

- Dəqiqə əqrəbi 6 və 12 arasında olanda “**qalıb**” deyilir.

5 dəqiqə əvvəl

5 dəqiqə əvvəl

Saat 3 tamamdır. *Saat 3-ə 5 dəqiqə qalıb.* *Saat 3-ə 10 dəqiqə qalıb.*

4. Saat neçədir?



5. Hər saat üçün uyğun vaxtları söyləyin.

a) 5 dəqiqə sonra
b) 10 dəqiqə sonra
c) 5 dəqiqə əvvəl
d) 10 dəqiqə əvvəl

Məsələ həlli

6. Lalə saat 3-ün yarısı, qardaşı isə ondan 2 saat sonra evə gəldi.
Lalənin qardaşı evə saat neçədə gəldi?



7. Elxan məktəbdən çıxanda saat 1-ə 15 dəqiqə işləyirdi.
O, evə çatanda saat 1-ə 25 dəqiqə qalırdı.
Elxan məktəbdən evə neçə dəqiqəyə gəldi?

ÜMUMİLƏŞDİRİCİ TAPŞIRIQLAR

1. Üst-üstə neçə hədiyyə qutusu qoyulsa, onların hündürlüyü dolabın hündürlüyünə bərabər olar?



2. Un şəkər tozundan 2 dəfə yüngüldür. Sağdakı tərəzinin gözlərini bərabərləşdirmək üçün neçə kiloqramlıq daş qoymaq lazımdır?



3. Dünyada ən böyük qarışqa 3 q yük daşıya bilir. Şəkildəki yarpağı 5 belə qarışqa daşıya bilərmi?

4. Çəndə 58 *l* su var idi. Tutumu 5 *l* olan vedrəni 7 dəfə su ilə doldurub çənə əlavə etdilər. Çəndə neçə litr su oldu?



5. İyul ayının təqviminə əsasən suallara cavab verin.

a) Bu ayda neçə çərşənbə axşamı var?

b) Ayın 29-u həftənin hansı gününə düşür?

c) Bazar günləri ayın cüt günləri ola bilərmi?

İyul						2021
B.e	Ç.a	Ç	C.a	C	Ş	B
			1	2	3	4
5	6	7	8	9	10	11
12	13	14	15	16	17	18
19	20	21	22	23	24	25
26	27	28	29	30	31	

6. Hər saat üçün uyğun vaxtları söyləyin.

a) 1 saat əvvəl

b) 1 saat sonra

c) 3 saat əvvəl

d) 3 saat sonra

e) Yarım saat əvvəl

f) Yarım saat sonra

g) 15 dəqiqə əvvəl

h) 15 dəqiqə sonra

41 Cədvəl, piktoqram, diaqram

Araşdırma-müzakirə

MAY 2021

B.e	Ç.a	Ç	C.a	C	Ş	B
					1	2
3	4	5	6	7	8	9
10	11	12	13	14	15	16
17	18	19	20	21	22	23
24	25	26	27	28	29	30
31						



Anar may ayının təqviminə əsasən həftənin günlərinin sayını diaqramda təsvir etdi.

- Təqvimin neçə sütunu var və onlar nəyi bildirir?
- Anar diaqramda həftənin hansı günlərinin sayını səhv verib?
- Diaqramda cəmi neçə rəngli xana olmalıdır?

Öyrənmə

Cədvəldə məlumatlar sətir və sütunlarla təsvir olunur. Məsələn, aşağıdakı cədvəldə hər uşağın hansı balıqdan neçə dənə saxladığı qeyd olunub.

Sütun ⇩

Sətir ⇨

Uşaqların adı	Zolaqlı balıqlar	Qırmızı balıqlar	Sarı balıqlar
Samir	7	8	3
Lalə	9	6	5
Elxan	5	4	2
Aynur	3	6	4

Samirin balıqlarının sayını belə tapmaq olar:

$$7 + 8 + 3 = 18$$

Hər balıqdan neçə dənə var?

Bələdçi

Cədvəldə şənbə və bazar günləri mağazada satılmış şirniyyatın sayı qeyd olunub. Cədvələ əsasən suallara cavab verin.

Şirniyyat	Şənbə	Bazar
Bulka	27	25
Keks	20	24
Pirojna	13	16
Şəkərbura	19	18
Paxlava	10	15

Nümunə:
- Şənbə və bazar günləri cəmi neçə bulka satıldı?

$$27 + 25 = 52$$

a) Şənbə günü neçə pirojna satıldı?
b) Şənbə günü ən çox hansı şirniyyatdan satıldı?
c) Şənbə günü cəmi neçə şirniyyat satıldı?
d) Bazar günü cəmi neçə şirniyyat satıldı?
e) Bazar günü satılan şirniyyatlar şənbə günü satılanlardan nə qədər çoxdur?

Müstəqil iş

1. Lalə dostlarından özləri haqqında bəzi məlumatları soruşub cədvəldə yazdı. Cədvələ əsasən suallara cavab verin.

Adı	Kütləsi	Saçlarının rəngi	Ailə üzvlərinin sayı	Kitablarının sayı
Səbinə	22 kq	qara	5	15
Elxan	25 kq	sarışın	4	8
Anar	26 kq	qara	6	9

- Neçə uşağın saçı qaradır?
- Kimin daha çox kitabı var?
- Kimin ailə üzvlərinin sayı daha çoxdur?

- Piktoqramda təsvir edilən əşyaların sayı çox olduqda uyğun işarə iki və ya daha çox əşyanı ifadə edə bilər. Məsələn, verilən piktoqramda hər ⭐ işarəsi 2 stikeri ifadə edir. Piktoqrama əsasən Samirin heyvan stikerlərinin sayını belə tapmaq olar:

$$2 + 2 + 2 + 2 + 2 + 2 = 12,$$

yaxud: $6 \cdot 2 = 12$.

Samirin stikerləri	
Heyvanlar	⭐⭐⭐⭐⭐⭐
Maşınlar	⭐⭐⭐⭐⭐
Təyyarələr	⭐⭐⭐⭐

Hər ⭐ = 2 stiker

Fikirləş!

Samirin cəmi neçə stikeri var? Bunu necə tapmaq olar?

2. Uşaqlar ən çox sevdikləri quşlar haqqında məlumatı cədvəldə qeyd etdilər. Cədvələ əsasən tərtib edilən piktoqramın hər sətrində neçə ☺ işarəsi olmalıdır?

Quşlar	Neçə nəfər
Tutuquşu	~~||||~~ |
Flaminqo	||
Göyərçin	||||
Bülbül	~~||||~~ |||

Sevimli quşlar	
Tutuquşu	
Flaminqo	
Göyərçin	
Bülbül	

Hər ☺ = 2 nəfər

- Eyni məlumatı müxtəlif üsullarla təqdim etmək olar. Məsələn, bazar günü fərqli yerlərə gəzintiyə gedən uşaqların sayını cədvəl, piktoqram və diaqramla belə təqdim etmək olar.

CƏDVƏL

Hara	Neçə nəfər	Sayı
Zoopark	~~||||~~ |||	8
Muzey	||||	4
Teatr	~~||||~~ |	6

PİKTOQRAM

Gəzməyə gedən uşaqlar	
Zoopark	🚶🚶🚶🚶
Muzey	🚶🚶
Teatr	🚶🚶🚶

Hər 🚶 = 2 nəfər

DİAQRAM



3. Bağçadakı güllərin sayı diaqramda təsvir edilib. Uyğun cədvəl qurun və suallara cavab verin:

- Nərgiz qızılgüldən nə qədər çoxdur?
- Lalə qızılgüldən neçə dəfə azdır?
- Bağçada cəmi neçə gül var?



Məsələ həlli

4. Piktoqramda zoomağazadakı heyvanların sayı göstərilib.

- Mağazada 6 tısbağa var. Piktoqramda hər △ neçə heyvanı göstərir?
- Mağazada hər heyvandan nə qədərdir?
- Mağazada cəmi neçə heyvan var?
- Mağazaya neçə tısbağa gətirilsə, onların sayı dovşanların sayına bərabər olar?
- Uyğun diaqram qurun.

Heyvanlar	
Tısbağa	△ △
Balıq	△ △ △ △ △ △
Dovşan	△ △ △ △
Pişik	△ △
Bülbül	△ △ △ △ △

42 Məlumatları necə toplamalı? Praktik dərs

Məlumat toplamağın yollarından biri də sorğu keçirməkdir. Sorğu keçirmək üçün müxtəlif insanlara eyni sual verilir və cavablar qeyd edilir. Sonra isə bu cavablardan nəticələr çıxarılır. Məsələn, tutaq ki, 18 uşağa "Hansı heyvanı sevirsən?" sualı verilib və aşağıdakı cavablar alınıb:

• pişik	• pişik	• pişik	• pişik	• tısbağa	• pişik
• it	• dovşan	• pişik	• dovşan	• it	• it
• bülbül	• bülbül	• it	• dovşan	• pişik	• pişik

Toplanmış məlumatları cədvəl, piktoqram, yaxud diaqramlar vasitəsilə təqdim etmək olar.

Addım 1. Cavablar alındıqca cədvəldə cizgilər çəkilir.

Sevimli heyvanım

Pişik	~~||||~~ |||	
İt	||||	
Bülbül	||	
Tısbağa	|	
Dovşan	|||	

Addım 2. Sorğu bitdikdən sonra nəticə ədədlərlə yazılır.

Sevimli heyvanım

Pişik	~~||||~~ |||	8
İt	||||	4
Bülbül	||	2
Tısbağa	|	1
Dovşan	|||	3

Addım 3. Uyğun piktoqram, yaxud diaqram qurula bilər.



Cədvəl və diaqrama əsasən suallar verməklə müxtəlif nəticələr çıxarmaq olar.

Suallara cavab verin və əlavə suallar tərtib edin.

- Uşaqlar neçə fərqli heyvan adını çəkdilər?
- Hansı heyvanı sevən uşaqların sayı daha çoxdur?

PRAKTİK TAPŞIRIQLAR

1. Sinif yoldaşlarınıza uyğun suallar verməklə dərsliyinizin 67-ci səhifəsində təqdim olunan 1-ci tapşırıqdakı kimi cədvəl tərtib edin.

2. Suallardan birini seçin və sorğu keçirin. Topladığınız məlumatları müxtəlif formalarda təqdim edin. Bu məlumatlara aid suallar verməklə nəticələr çıxarın.

Ən çox hansı fəsli sevirsən?

Ən çox hansı idman növünü sevirsən?

Ən çox hansı yeməyi sevirsən?

2-ci SİNİF ÜZRƏ
ÜMUMİLƏŞDİRİCİ TAPŞIRIQLAR

- *6, 7, 10, 11, 13, 14, 15 və 16-cı məsələləri tərtib edərkən Üzeyir Hacıbəylinin "Hesab məsələləri" kitabından (Bakı, 1907-ci il) istifadə olunmuşdur.*
- *Çətinlik dərəcəsi nisbətən yüksək olan məsələlər "☆" işarəsi ilə qeyd edilmişdir.*

1. Əməlləri yerinə yetirin.

+ 38 / 44	− 53 / 46	+ 46 / 51	− 58 / 29	+ 66 / 7	− 92 / 33	+ 60 / 6	− 63 / 5	+ 52 / 31	− 46 / 25
+ 24 / 64	+ 56 / 35	+ 33 / 66	− 66 / 33	− 93 / 23	+ 58 / 22	+ 48 / 38	− 42 / 25	+ 18 / 41	− 31 / 25
− 32 / 15	− 85 / 6	+ 19 / 59	− 56 / 36	+ 25 / 65	+ 36 / 36	− 43 / 27	+ 24 / 48	+ 38 / 37	− 87 / 29
+ 18 / 32 / 26	+ 25 / 15 / 42	+ 29 / 20 / 11	+ 27 / 25 / 37	+ 40 / 29 / 8	+ 9 / 34 / 41	+ 16 / 14 / 53	+ 13 / 27 / 27	+ 35 / 20 / 35	+ 26 / 26 / 24

2. Hesablayın.

12 : 2	5 · 4	18 : 3	1 · 4	24 : 4	2 · 5	3 · 9	27 : 3	5 · 6	0 · 9
10 : 5	2 · 1	20 : 4	7 : 7	21 : 3	6 · 0	35 : 5	36 : 4	24 : 3	4 · 8

3. Hesablayın və müqayisə edin.

35 – 19 ∗ 24 – 7	63 – 27 ∗ 74 – (55 – 15)	54 – 27 + 13 ∗ 54 – (27 + 13)

80 – 35 ∗ 5 · 9	8 · 3 ∗ 18 + 20 + 12	12 : 4 ∗ 12 : 3	14 : 2 ∗ 62 – 32 – 18

4. Ədədlərin yazılma qaydasını müəyyən edin və boş yerlərə uyğun ədədləri tapın.

a) 297, 298, ___ , ___ , ___

b) 120, 130, ___ , 150, ___ , ___

c) 200, 205, ___ , ___ , 220, ___ , 230

d) 100, 150, 200, ___ , 300, 350, ___

5. Verilən ədədləri Venn diaqramının hansı hissələrinə yerləşdirmək olar?

18, 36, 48,
6, 75, 78,
80, 83, 89



6. Kəndlinin 26 qara
və 37 ağ qoyunu var idi.
O bunların 45-ni satdı.
Kəndlinin neçə qoyunu qaldı?



7. Bostanda 70 qarpız yetişdi.
Bostançı əvvəl 36, sonra isə
28 qarpız yığdı. Bostanda
nə qədər qarpız qaldı?



8. Anarın kəsdiyi paraleloqramdan 2 üçbucaq və 1 düzbucaqlı alındı. Onun kəsdiyi paraleloqram hansıdır?

a) 
b) 
c)
d)

9. Fiqurları uyğun qutulara yığmaq lazımdır.

- Hər qutuda hansı fiqurdan neçə dənə olacaq?
- 1-ci qutudakı fiqurlar 2-ci qutudakılardan neçə dəfə çox olacaq?



10★**.** Şagird 30 qəpiyə karandaş, 25 qəpiyə karandaşyonan və 35 qəpiyə dəftər aldı. O, satıcıya 1 manat verdi. Satıcı nə qədər pul qaytarmalıdır?



11. Yeni parkda 3 yol saldılar. Birinci yolun uzunluğu 30 m idi. Bu yol ikincidən 12 m qısa idi.

- İkinci yolun uzunluğu neçə metr idi?
- Üçüncü yol ikincidən 8 m uzun idi. Üçüncü yolun uzunluğu neçə metr idi?

12★**.** Tərəzinin gözləri bərabərləşib. Mavi, yaşıl və qırmızı qutuların hər birinin kütləsini tapın.



13. Satıcı 20 l südü 5 alıcıya satdı. Hər alıcı eyni miqdarda süd aldı. 1 l südün qiyməti 2 manat olarsa, hər alıcı neçə manat ödədi?

14★**.** Kəndli buğdasını öz kəndlərində 56 manata sata bilər. Ancaq o, buğdanı şəhərə aparıb 82 manata satdı. Kəndli yola 12 manat xərclədi. O, buğdasını şəhərə aparıb satmaqla əlavə neçə manat qazandı?

15. Kəndli hər birinin qiyməti 8 manat olan 3 toyuq aldı. Toyuqlara ödənilən pula birinin qiyməti 4 manat olan neçə cücə almaq olar?

16. Kəndli bir hinduşkanı 18 manata, o birini isə 19 manata aldı. O, bir müddət sonra bunları birlikdə 82 manata satdı. Kəndli nə qədər pul qazandı?

17. Lalə teatr binasına 3-ə 5 dəqiqə qalmış daxil oldu. Tamaşa saat 4-ün yarısı başlayacaqdı.

- Lalə tamaşanın başlanma vaxtından neçə dəqiqə tez gəldi?
- Tamaşanın müddəti 2 saatdır. Tamaşa saat neçədə bitəcək?



18. Diaqramda dərnəklərə yazılan uşaqlar haqqında məlumat verilmişdir.

- Dərnəklərə cəmi neçə uşaq yazıldı?
- Rəqsə yazılanlar musiqiyə yazılanlardan neçə nəfər azdır?
- Şahmata yazılanlar rəqsə yazılanlardan neçə dəfə çoxdur?
- Diaqramdakı məlumatları cədvəldə təsvir edin.
- Hər 5 nəfəri 🚶 ilə işarə etməklə piktoqram qurun.



SÖZLÜK

Desimetr – 10 sm-ə bərabər uzunluq ölçü vahidi. Qısa olaraq “dm” kimi yazılır.

1 dm = 10 sm

Dəqiqə – 1 saat 60 dəqiqədir.

Ədədi ifadə – ədəd, əməl işarələri və mötərizələrdən ibarət olan ifadə. Məsələn: 12 + 25, 54 – (29 + 10), 30 – (21 – 11)

Əməllər ardıcıllığı – ifadənin qiymətini hesablayarkən əməllərin düzgün ardıcıllıqla yerinə yetirilməsi.

Qram – kütlənin ölçü vahidlərindən biri. Qısa olaraq “q” kimi yazılır. Məsələn, zəncirotu uçağanının kütləsi təxminən 1 qramdır.

Metr – 100 sm-ə bərabər uzunluq ölçü vahidi. Qısa olaraq “m” kimi yazılır.



Məbləğ – bir neçə malı alanda ödəniləcək ümumi pulun miqdarı.



15₼ + 4₼ + 2₼ + 3₼ = 24₼

Mötərizəli ifadə ( ) – bəzi əməllərin mötərizə daxilində yazıldığı ifadə.

• Mötərizə daxilindəki ifadələr ilk olaraq yerinə yetirilir.

15 – (9 + 5) = 15 – 14 = 1

• Mötərizə yoxdursa, toplama və çıxma əməlləri soldan sağa ardıcıl yerinə yetirilir.

15 – 9 + 5 = 6 + 5 = 11

Mümkün olmayan hadisə – heç zaman baş verə bilməyəcək hadisə. Məsələn, gecə günəşin çıxması mümkün deyil.

Ola bilməz.

Onluğun ayrılması – azalandan 1 onluğu ayırıb təkliklərə 10 vahid kimi əlavə edilməsi.



5 onl. 2 təkl. 4 onl. 12 təkl.

Təkrarlanan hadisələr – müəyyən zaman keçdikdən sonra təkrarlanan hadisələr. Məsələn, günün vaxtları, həftənin günləri, aylar, fəsillər daim təkrarlanır.





Təqvim – ayın tarixini, həftənin neçənci günü olduğunu bilmək üçün cədvəl.

Yanvar						2021
B.e	Ç.a	Ç	C.a	C	Ş	B
				1	2	3
4	5	6	7	8	9	10
11	12	13	14	15	16	17
18	19	**20**	21	22	23	24
25	26	27	28	29	30	31

Fevral						2021
B.e	Ç.a	Ç	C.a	C	Ş	B
1	2	3	4	5	6	7
8	9	10	11	12	13	14
15	16	17	18	19	20	21
22	23	24	25	26	27	28

Mart						2021
B.e	Ç.a	Ç	C.a	C	Ş	B
1	2	3	4	5	6	7
8	9	10	11	12	13	14
15	16	17	18	19	20	21
22	23	24	25	26	27	28
29	30	31				

Aprel						2021
B.e	Ç.a	Ç	C.a	C	Ş	B
			1	2	3	4
5	6	7	8	9	10	11
12	13	14	15	16	17	18
19	20	21	22	23	24	25
26	27	28	29	30		

May						2021
B.e	Ç.a	Ç	C.a	C	Ş	B
					1	2
3	4	5	6	7	8	9
10	11	12	13	14	15	16
17	18	19	20	21	22	23
24	25	26	27	28	29	30
31						

İyun						2021
B.e	Ç.a	Ç	C.a	C	Ş	B
	1	2	3	4	5	6
7	8	9	10	11	12	13
14	15	16	17	18	19	20
21	22	23	24	25	26	27
28	29	30				

İyul						2021
B.e	Ç.a	Ç	C.a	C	Ş	B
			1	2	3	4
5	6	7	8	9	10	11
12	13	14	15	16	17	18
19	20	21	22	23	24	25
26	27	28	29	30	31	

Avqust						2021
B.e	Ç.a	Ç	C.a	C	Ş	B
						1
2	3	4	5	6	7	8
9	10	11	12	13	14	15
16	17	18	19	20	21	22
23	24	25	26	27	28	29
30	31					

Sentyabr						2021
B.e	Ç.a	Ç	C.a	C	Ş	B
		1	2	3	4	5
6	7	8	9	10	11	12
13	14	15	16	17	18	19
20	21	22	23	24	25	26
27	28	29	30			

Oktyabr						2021
B.e	Ç.a	Ç	C.a	C	Ş	B
				1	2	3
4	5	6	7	8	9	10
11	12	13	14	15	16	17
18	19	20	21	22	23	24
25	26	27	28	29	30	31

Noyabr						2021
B.e	Ç.a	Ç	C.a	C	Ş	B
1	2	3	4	5	6	7
8	9	10	11	12	13	14
15	16	17	18	19	20	21
22	23	24	25	26	27	28
29	30					

Dekabr						2021
B.e	Ç.a	Ç	C.a	C	Ş	B
		1	2	3	4	5
6	7	8	9	10	11	12
13	14	15	16	17	18	19
20	21	22	23	24	25	26
27	28	29	30	31		

Toplamanın yerdəyişmə xassəsi – toplananların yerini dəyişəndə cəm dəyişmir.





$$3 + 2 = 2 + 3$$

“Saat tamamdır” – dəqiqə əqrəbi 12-nin üstündə olanda “Saat tamamdır” deyilir.

Saat 2 tamamdır.



“Saat yarısıdır” – dəqiqə əqrəbi 6-nın üstündə olanda “Saat yarısıdır” deyilir.

Saat 2-nin yarısıdır.



“İşləyib” – dəqiqə əqrəbi 12 və 6 arasında olanda “işləyib” deyilir.

Saat 9-a 5 dəqiqə işləyib.

“Qalıb” – dəqiqə əqrəbi 6 və 12 arasında olanda “qalıb” deyilir.

Saat 3-ə 20 dəqiqə qalıb.

Sorğu keçirmək – müxtəlif insanlara eyni sual verib məlumat toplamaq.

Hansı yeməyi daha çox sevirsən?

kotlet ☐
dolma ☐
qutab ☑

Vurmanın yerdəyişmə xassəsi – vuruqların yerini dəyişəndə hasil dəyişmir.





$$4 \cdot 3 = 3 \cdot 4$$

Yüzlük – 100 təklik, yaxud 10 onluq. 100-dən böyük ədədin yazılışında sağdan üçüncü rəqəm yüzlüklərin sayını göstərir.

235 ➡

Yüzlüklər	Onluqlar	Təkliklər
		
2	3	5

BURAXILIŞ MƏLUMATI

Ümumi təhsil müəssisələrinin 2-ci sinifləri üçün
Riyaziyyat fənni üzrə
dərslik
(2-ci hissə)

Tərtibçi heyət

Müəlliflər	**Zaur İsayev** **Mənsur Məhərrəmov** **Günay Hüseynzadə** **Solmaz Abdullayeva** **İlahə Rüstəmova**
Layihə rəhbəri	**Zaur İsayev**
Redaktor	**Ayhan Kürşat Erbaş**
İxtisas redaktoru	**İsmayıl Sadıqov**
Dil redaktoru	**Əsgər Quliyev**
Bədii redaktor	**Taleh Məlikov**
Texniki redaktor	**Zeynal İsayev**
Dizayner	**Taleh Məlikov**
Rəssamlar	**Elmir Məmmədov**
Korrektor	**Aqşin Məsimov**
Məsləhətçilər	**Sevinc Əsədova** **Xatirə Əliyeva**

© Azərbaycan Respublikası Təhsil Nazirliyi (qrif nömrəsi: 2021-011)

Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və yaxud onun
hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq,
elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.

ISBN 978-9952-8390-6-7

Hesab-nəşriyyat həcmi: 7,7. Fiziki çap vərəqi: 9,5.
Səhifə sayı: 76. Kəsimdən sonra: 220 × 275. Kağız formatı: 57 × 90 $^{1}/_{8}$.
Şriftin adı və ölçüsü: Calibri, 16 pt. Ofset kağızı. Ofset çapı.
Sifariş ____. Tiraj: 167182. Pulsuz. Bakı – 2021.

Əlyazmanın yığıma verildiyi və çapa imzalandığı tarix: 24.06.2021

Çap məhsulunu nəşr edən:
Azərbaycan Respublikasının Təhsil İnstitutu (Bakı ş. A.Cəlilov küç., 86).

Çap məhsulunu istehsal edən:
“Təhsil NP” MMC (Bakı, F.Xoyski küç., 121a)

VURMA CƏDVƏLİ

×	0	1	2	3	4	5	6	7	8	9	10
0	0	0	0	0	0	0	0	0	0	0	0
1	0	1	2	3	4	5	6	7	8	9	10
2	0	2	4	6	8	10	12	14	16	18	20
3	0	3	6	9	12	15	18	21	24	27	30
4	0	4	8	12	16	20	24	28	32	36	40
5	0	5	10	15	20	25	30	35	40	45	50
6	0	6	12	18	24	30	36	42	48	54	60
7	0	7	14	21	28	35	42	49	56	63	70
8	0	8	16	24	32	40	48	56	64	72	80
9	0	9	18	27	36	45	54	63	72	81	90
10	0	10	20	30	40	50	60	70	80	90	100

1

1×1 = 1
1×2 = 2
1×3 = 3
1×4 = 4
1×5 = 5
1×6 = 6
1×7 = 7
1×8 = 8
1×9 = 9
1×10 = 10

2

2×1 = 2
2×2 = 4
2×3 = 6
2×4 = 8
2×5 = 10
2×6 = 12
2×7 = 14
2×8 = 16
2×9 = 18
2×10 = 20

3

3×1 = 3
3×2 = 6
3×3 = 9
3×4 = 12
3×5 = 15
3×6 = 18
3×7 = 21
3×8 = 24
3×9 = 27
3×10 = 30

4

4×1 = 4
4×2 = 8
4×3 = 12
4×4 = 16
4×5 = 20
4×6 = 24
4×7 = 28
4×8 = 32
4×9 = 36
4×10 = 40

5

5×1 = 5
5×2 = 10
5×3 = 15
5×4 = 20
5×5 = 25
5×6 = 30
5×7 = 35
5×8 = 40
5×9 = 45
5×10 = 50

6

6×1 = 6
6×2 = 12
6×3 = 18
6×4 = 24
6×5 = 30
6×6 = 36
6×7 = 42
6×8 = 48
6×9 = 54
6×10 = 60

7

7×1 = 7
7×2 = 14
7×3 = 21
7×4 = 28
7×5 = 35
7×6 = 42
7×7 = 49
7×8 = 56
7×9 = 63
7×10 = 70

8

8×1 = 8
8×2 = 16
8×3 = 24
8×4 = 32
8×5 = 40
8×6 = 48
8×7 = 56
8×8 = 64
8×9 = 72
8×10 = 80

9

9×1 = 9
9×2 = 18
9×3 = 27
9×4 = 36
9×5 = 45
9×6 = 54
9×7 = 63
9×8 = 72
9×9 = 81
9×10 = 90

10

10×1 = 10
10×2 = 20
10×3 = 30
10×4 = 40
10×5 = 50
10×6 = 60
10×7 = 70
10×8 = 80
10×9 = 90
10×10 = 100

Pulsuz



Əziz məktəbli !

Bu dərslik sizə Azərbaycan dövləti tərəfindən bir dərs ilində istifadə üçün verilir. O, dərs ili müddətində nəzərdə tutulmuş bilikləri qazanmaq üçün sizə etibarlı dost və yardımçı olacaq.

İnanırıq ki, siz də bu dərsliyə məhəbbətlə yanaşacaq, onu zədələnmələrdən qoruyacaq, təmiz və səliqəli saxlayacaqsınız ki, növbəti dərs ilində digər məktəbli yoldaşınız ondan sizin kimi rahat istifadə edə bilsin.

Sizə təhsildə uğurlar arzulayırıq!